

## Birinci vitse-prezident Mehriban Əliyeva Avropa və Dünya çempionatlarının mükafatçılarını təbrik edib

2

# Ceyhun Bayramov: “Münaqişə artıq həll olunub”




2

*“Rusiya və Azərbaycan arasında əməkdaşlıq əlaqələri getdikcə genişlənir. Bütün sahələrdə əlaqələr inkişaf edir. Bizim dostluğumuz nümunədir.” Bu sözləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyunun 24-də Azərbaycanın Xarici İşlər Nazirliyində keçirilən mətbuat konfransında deyib.*

Səs

№ 112 (6553) **25 iyun 2022-ci il. Qiymәti 60 qәpik**

# SON 19 İL: Güclü dövlət, güclü ordu, qalib Lider!

## Şanlı Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer alıb



8

3




## Siyasi partiyaların rəhbərləri və bir qrup politoloq Zəngilanda səfərdə olub

5



## Qurban bayramında nələrə diqqət edilməlidir?

13

“İyul ayının 9-10-u Azərbaycanda Qurban bayramıdır. Qurban bayramı islamın ən gözəl bayramlarındandır. Bu bayramın xüsusi yeri və məqamı var.



14

## Qarabağ ermənilәri Hərəkatının rəhbəri sülhdən danışdı!

## Ermənilər Laçında təxribat törətdilər: Dəhliz hər an bağlana bilər




*"Keçi südü inək südünə nisbətən daha faydalıdır. Ona görə ki, qida dəyəri baxımından keçi südü inək südündən daha zəngindir".*



## Paytaxt yollarının bitməyən tıxac dərdi: Problemi necə həll etməli?



# BP şirkəti Azərbaycanla əməkdaşlığa böyük önəm verir



*Prezident İlham Əliyev BP qrupunun baş icraçı direktorunu qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də BP qrupunun baş icraçı direktoru Bernard Lunini qəbul edib. Görüşdə BP şirkətinin SOCAR ilə uzun illər uğurlu əməkdaşlıq həyata keçirdiyi vurğulanıb. Eyni zamanda Şirkətin bundan sonra da ölkəmizdə fəaliyyət göstərmək niyyəti ifadə olunub.

BP-nin Azərbaycanda yaşıl enerji növlərinə keçidlə bağlı verdiyi töhfə qeyd edildi. Şirkət tərəfindən Cəbrayılda inşa ediləcək 240 meqavatlıq günəş elektrik stansiyasının əhəmiyyətinə toxunuldu, bununla bağlı iyunun 4-də Şuşada BP ilə imzalanmış sənədin önəmi vurğulandı. Söhbət zamanı gələcək planlar barədə fikir mübadiləsi aparıldı.

# Ceyhun Bayramov: "Münaqişə artıq həll olunub"




***"Rusiya və Azərbaycan arasında əməkdaşlıq əlaqələri getdikcə genişlənir. Bütün sahələrdə əlaqələr inkişaf edir. Bizim dostluğumuz nümunədir." Bu sözləri Rusiyanın xarici işlər naziri Sergey Lavrov iyunun 24-də Azərbaycanın Xarici İşlər Nazirliyində keçirilən mətbuat konfransında deyib.***

Xəzərin statusu ilə bağlı danışan rusiyalı nazir bildirib ki, tezliklə Aşqabadda bu məsələ təsdiqini tapacaq. "İşğaldan azad edilmiş ərazilərin bərpasında iştirak etməyə hazırıq", - deyə Sergey Lavrov vurğulayıb.

BMT və ATƏT-in Minsk qrupu ilə bağlı müzakirələr aparıldığı qeyd edən rusiyalı nazir əlavə edib ki, humanitar sahədə layihələr davam edir. Rusiya teatrından Azərbaycana nümayəndələr gələcək və "Kitabxanaçının dili" mövzusunda mübadilə olacaq. Əsas müzakirə mövzusu beynəlxalq informasiya təhlükəsizliyi ilə bağlı idi və bununla bağlı sənəd imzaladıq.

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov çıxışında diqqətə çatdırıb ki, münaqişə artıq həll olunub. Azərbaycan regionda sülhün və təhlükəsizliyin tərəfdarıdır. Bu məsələdə Rusiyanın dəstəyini yüksək qiymətləndiririk. Üçtərəfli Bəyanat təhlükəsizliyə təminat verir.

Azərbaycanın Qələbədən sonra işğaldan azad edilmiş ərazilərdə bərpa və quruculuq işləri apardığını diqqətə çatdıran nazir deyib ki, Rusiya şirkətlərinin bu prosesdə iştirakında maraqlıyıq. Dəmiryolu relsləri Rusiyanın hesabına əldə edilir. İnanırıq ki, bu sahədə əməkdaşlığımız davam edəcək.

Xəzər dənizi münasibətlərdə mühüm element kimi çıxış edir. Rusiya və Azərbaycan radifikasiya məsələsini keçiblər. Bu sahədə normativ aktlar hazırlanıb. Bu yaxınlarda Türkmənistanda keçiriləcək sammitdə Xəzərin radifikadiyası təsdiqlənəcək. Azərbaycan beynəlxalq təhlükəsizlik sahəsində qonşu ölkələrlə əməkdaşlıq etməyə hər zaman hazırdır.

# Birinci vitse-prezident Mehriban Əliyeva Avropa və Dünya çempionatlarının mükafatçılarını təbrik edib



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Avropa və dünya çempionatlarının mükafatçılarını təbrik edib.

AZƏRTAC xəbər verir ki, təbrikdə deyilir: "Yeniyetmələr və böyüklər arasında yaxın günlərdə keçirilmiş qılıncoynatma, bədii gimnastika, cüdo, güləş və karate üzrə Avropa çempionatlarının mükafatçısı olan bütün idmançılarımızı, həmçinin dünya çempionatında qızıl medal qazanmış paraüzgüçülərimizi səmimi-qəlbdən təbrik edirəm. Sizin qələbəniz mükəmməl hazırlığın, məqsədyönlülüyün və iradənin əyani sübutudur. Hamınıza möhkəm cansağlığı, sevinc və yeni nailiyyətlər arzulayıram".

# "Siyasi partiya rəhbərləri üçün birgə səfərlərin təşkili təcrübəsi xüsusi siyasi çəkiyə malikdir"

***"Ölkədə siyasi dialoq ənənə və təcrübəsinin daha da dərinləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə mütəmadi olaraq müxtəlif səpgili layihələr icra olunur.***



Azərbaycan ictimaiyyəti mövcud istiqamətdəki davamlı təşəbbüslərin şahididir. Təsadüfi deyil ki, ölkə Prezidenti öz ritorikasında siyasətdə sağlam münasibətlərin bərqərar olunması, siyasi dialoq mühitinin əhəmiyyəti və konstruktiv əməkdaşlığın vacibliyi kimi önəmli demokratik məzmunlu təzahürlərə davamlı olaraq müraciət edir". SİA xəbər verir ki, bunu Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Siyasi partiya rəhbərlərinin və politoloqların Zəngilan rayonuna səfəri çərçivəsində jurnalistlərə açıqlamasında deyib.

Onun sözlərinə görə, mövcud kontekstdə işğaldan azad olunmuş ərazilərə siyasi partiya rəhbərləri üçün birgə səfərlərin təşkili təcrübəsi xüsusi siyasi çəkiyə malikdir: "Xatırladaq ki, ölkənin demokratik məzmunlu siyasi dialoq təcrübəsini zənginləşdirən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha öncə Ağdam və Şuşa şəhərlərinə təşkil olunmuşdur. Belə ki, partiya rəhbərlərinin və politoloqların ilk birgə səfəri ötən ilin 17 mart tarixində Ağdam şəhərinə təşkil olunmuşdur. İkinci birgə səfər ötən ilin 7 oktyabr tarixində artıq Şuşa şəhərinə təşkil olunmuşdur. Növbəti, artıq üçüncü dəfə ölkə siyasiləri Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə cari ilin 15 iyun tarixində Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak etmək üçün birgə səfərə çıxmışlar. Ölkənin siyasi tarixində ilk dəfə olaraq müxalif siyasi partiyalar iqtidar tərəfindən təşkil olunmuş rəsmi dövlət tədbirində iştirak etmişlər".

PA rəsmisi əlavə edib ki, növbəti, artıq sayca 4-cü olan, birgə səfərin ünvanı Zəngilan rayonudur: "Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının təşkilatçılığı ilə cari ilin 24 iyun tarixində keçirilmiş səfərdə 40 siyasi partiyanın 46 nümayəndəsi təmsil olunmuşdur. Təşkil olunmuş səfərdə siyasilər ilə yanaşı, 6 tanınmış politoloq, siyasi şərhçi və 19 nəfər jurnalistlər də iştirak etmişdir".

# SON 19 İL: Güclü dövlət, güclü ordu, qalib Lider!

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ”Dəmir yumruq” əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığını nümayiş etdirərək bütün dünyaya öz gücünü, qüdrətini göstərdi. Ermənistan və havadarları tərəfindən işğal olunmuş torpaqlarımız əsgər və zabitlərimizin qanı və canı bahasına azad edildi. Bu, Prezident İlham Əliyev tərəfindən son 19 il ərzində həyata keçirilən ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”dəmir yumruq” siyasətinin nəticəsidir.**



*İLHAM ƏLİYEV: "Biz ilk dəfədir Silahlı Qüvvələr Gününü Müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik"*

Prezident, Ali Baş Komandan İlham Əliyev ötən il iyunun 26-da Silahlı Qüvvələr Günün 103-cü ildönümü ilə Azərbaycan Ordusunun rəhbər və şəxsi heyətinin bir qrupu ilə görüşündəki nitqində qürur hissi ilə qeyd edib ki, biz ilk dəfədir Silahlı Qüvvələr Gününü müzəffər ordu kimi, qalib xalq kimi qeyd edirik: ”İyunun 26-sı Silahlı Qüvvələr Günüdür. Bu günü biz hər il təntənə ilə qeyd edirdik. Müxtəlif tədbirlər keçirilirdi. Hər il 26 iyun tarixində hərbçilərlə görüşlər əsnasında mən deyirdim ki, gün gələcək biz öz doğma torpağımıza qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Deyirdim ki, əgər bu, danışıqlar yolu ilə mümkün olmayacaqsa, məsələni hərbi yolla həll edəcəyik. Belə də oldu. Uzun illər davam edən danışıqlar heç bir nəticə vermədi və Azərbaycan öz ərazi bütövlüyünü, tarixi ədaləti, beynəlxalq hüququ döyüş meydanında təmin etmişdir”, deyən dövlət başçısı vurğulayıb.

”Biz şəhidlərimizin qisasını döyüş meydanında aldıq. Dəfələrlə demişdim ki, şəhidlərimizin qanı yerdə qalmayacaq. Belə də oldu. İkinci Qarabağ müharibəsi Azərbaycanın tam Qələbəsi ilə nəticələndi”, deyən Ali Baş Komandan söyləyib ki, bu Azərbaycan xalqının çoxəsrlik tarixində buna bənzər parlaq zəfər olmamışdır: ”Biz bütün gücümüzü səfərbər edərək düşmənə sarsıdıcı zərbələr endirib, düşməni məğlub etdik, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etdik!... Çünki nəyi demişiksə, onu da etmişik”.

## ÜMUMMİLLİ LİDERİN HAKİMİYYƏTƏ QAYIDIŞINDAN SONRA ORDUMUZDA VƏ XALQIMIZDA QƏLƏBƏYƏ QƏTİ İNAM YARANDI

1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının qərarı ilə ilk müntəzəm hərbi hissə - əlahiddə Azərbaycan korpusu yaradılıb. Həmin il mayın 28-də qəbul edilmiş ”İstiqlal bəyannaməsi”ndə qeyd edilirdi ki, Azərbaycan özünü xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün nizami orduya malik olmalı, özünün silahlı qüvvələrini yaratmalıdır. Hökumət tərəfindən 25 min nəfərlik ordu yaratmaq vəzifəsi irəli sürüldü. Avqustun 1-də Azərbaycanın Hərb Nazirliyi təsis olundu, ilk müdafiə naziri isə Xosrov bəy Sultanov təyin edildi. Daha sonra - dekabrın 25-də istedadlı general Səməd bəy Mehmandarov hərbi nazir, general-leytenant Əlağa Şıxlinski nazir müavini təyin olundular.

Qısa müddətdə yaradılmasına baxmayaraq, Milli Ordu Osmanlı dövlətinin Qafqaz İslam Ordusu ilə birlikdə Bakını və ətraf əraziləri erməni-bolşevik işğalından xilas etdi. Bu hərbi birləşmələr Muğanda və Əsgəranda milli hökumətə qarşı baş vermiş qiyamların yatırmaqda yüksək cəsarət və igidlik göstərdi, Qazaxda Azərbaycan sərhədini pozmuş erməni nizami ordu hissələrini darmadağın etdi. Azərbaycanda ilk hərbi parad 1919-cu ildə Bakıda indiki Muzey Mərkəzinin yerləşdiyi ərazidə keçirilib. Təəssüf ki, Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etdikdən sonra bolşevik hökuməti Milli Ordunu ləğv etdi. Onun rəhbərlərinin əksəriyyəti, o cümlədən 15 general Nargin adasında güllələndi. Əsası Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş Azərbaycan Ordusunun ənənələri sonrakı dövrdə qorunub saxlanıldı və inkişaf etdirildi. Bu, ümummilli liderimiz Heydər Əliyevin ciddi səyləri nəticəsində mümkün olub. Əbədiyaşar lider Heydər Əliyevin rəhbərliyi ilə ordu quruculuğu sahəsində aparılan işlər ölkəmizdə mütəşəkkil, qüdrətli ordu yaratmağa imkan verdi, onun gələcəkdə daha da möhkəmlənməsi üçün əsaslı zəmin yaratdı. Ulu Öndər hələ sovet dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə böyük uzaqgörənliklə milli zabit kadrların yetişdirilməsininə çalışırdı. Çünki hələ yaxın keçmişdə Azərbaycan Ordusu yaradılmasına başlanıldığı vaxtdan müxtəlif təzyiqlərə məruz qalmışdı. Həm xaricdən, həm də daxildən göstərilən təzyiqlərin əsas məqsədi ordu quruculuğunun qarşısını almaqla Azərbaycanın müstəqil bir dövlət kimi mövcudluğuna yol verməmək idi. Belə ki, sovet hakimiyyəti dövründə də Rusiya imperiyasının azərbaycanlılara qarşı hərbi siyasəti dəyişməmişdi. Sovet hakimiyyəti illərində çar dövründən fərqli olaraq azərbaycanlı gənclər hərbi xidmətə çağırılırdılar. Lakin onlar döyüş üçün nəzərdə tutulmuş hərbi hissələrdə yox, əsasən tikinti batalyonlarında xidmət edirdilər. Məqsəd aydın idi - azərbaycanlılar arasında hərb elminə dərindən yiyələnən, müasir silahlarla rəftar etməyi bacaran hərbçilərin yetişdirilməsinə imkan verməmək.

Bu siyasətin mahiyyətini yaxşı bilən Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən qısa müddət sonra - 1971-ci il iyunun 20-də Cəmşid Naxçıvanski adına ixtisaslaşdırılmış hərbi məktəbin yaradılmasına nail oldu. Ulu Öndərimiz azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də nail olmuşdu. Bu gün Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrlarımızın yetişdirilməsində və o dövrdə ali hərbi məktəbləri bitirmiş şəxslərin Silahlı Qüvvələrin formalaşmasında müstəsna rolu vardır. Bu məktəblərdə yetişən Azərbaycan hərbçiləri Birinci Qarabağ müharibəsində, Aprel döyüşlərində, Vətən müharibəsində misilsiz igidliklər göstərdilər.1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan Ordusunun yaradılması haqqında qərar qəbul edildi. Lakin müstəqilliyin əvvəllərində ölkəmizə rəhbərlik edənlər Ermənistanın torpaqlarımızı işğal etdiyi bir vaxtda belə ordu quruculuğu işinin öhdəsindən gələ bilmədilər. Nəticədə torpaqlarımızın 20 faizi işğal olundu, vətəndaş qarşıdurması baş verdi, Azərbaycan müstəqilliyin itirilməsi təhlükəsi ilə üz-üzə qaldı. Belə bir vaxtda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin silahlı dəstələri ləğv edərək nizami ordu quruculuğu prosesinə start verdi.

Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra ordumuzda və xalqımızda qələbəyə qəti inam yarandı. Dahi şəxsiyyətin çağırışı ilə genişmiqyaslı səfərbərlik keçirildi, hərbi hissələr tam komplektləşdirildi. Bundan ruhlanan ordumuz ümummilli lider Heydər Əliyevin xeyir-duası ilə uğurlu hücum əməliyyatları keçirərək düşmənə sarsıdıcı zərbələr endirdi. Ümummilli Liderin rəhbərliyi ilə Azərbaycan Ordusunun ilk sınağı 1994-cü ilin yanvarında oldu. Azərbaycan Silahlı Qüvvələrinin 1994-cü il yanvarın 5-dən 6-na keçən gecə həyata keçirdiyi uğurlu əməliyyat nəticəsində Füzuli rayonunun 20 kəndi, Horadiz qəsəbəsi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi işğaldan azad edildi. Ordu quruculuğu işinə böyük önəm verən ulu öndər Heydər Əliyevin 1998-ci il 22 may tarixli Fərmanına əsasən, 26 İyun - Silahlı Qüvvələr Günü elan olundu.

Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda hərbi sənaye kompleksi də yaradıldı. Bu gün Azərbaycanda mindən çox hərbi təyinatlı məhsul istehsal edilir. Dünyanın aparıcı beynəlxalq sərgilərində Azərbaycanın hərbi məhsulları nümayiş olunur. Rəşadətli Ordumuz öz gücünü 2016-cı ilin aprel ayında bir daha sübut etdi. Aprelin 2-də Ermənistan ordusunun təxribatlarına cavab olaraq, Azərbaycan Ordusu sürətli əks-hücum əməliyyatı ilə düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza yenidən qələbə sevinci yaşatdı. Azərbaycan Ordusunun daha bir uğuru Aprel döyüşlərindən iki il sonra - 2018-ci ilin mayında Günnüt zəfəri ilə qazanıldı. Bu uğurlu əməliyyat nəticəsində Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli mövqelər Azərbaycan Ordusunun nəzarəti altına keçdi. Beləliklə də, Əlahiddə Ümumqoşun Ordunun müdafiə zolağının ön xəttinin dövlət sərhədi boyu əlverişli mövqelərə irəli çəkilməsi əməliyyatı uğurla nəticələndi, qarşıya qoyulan məqsədə nail olundu.

## ”GÜN GƏLƏCƏK VƏ BU GÜN İŞĞAL ALTINDAKI TORPAQLAR AZAD OLUNANDAN SONRA ORADA QALDIRILACAQ AZƏRBAYCAN BAYRAĞI AZADLIQ MEYDANINA GƏTİRİLƏCƏK VƏ HƏRBİ PARADDA GÖSTƏRİLƏCƏK”

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradda Prezident, Ali Baş Komandan İlham Əliyev demişdi: ”2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

Dövlətimizin başçısının qəti əminliklə dediyi bu sözlər - xalqımızın həsrətlə gözlədiyi qələbə arzuları çox keçmədən həyata keçdi. 2020-ci ilin iyulunda düşmənin Tovuz rayonu istiqamətində törətdiyi təxribatların qarşısını rəşadətlə alan cəsur Azərbaycan Ordusu çox keçmədən xalqımıza öz tarixinin ən şanlı qələbəsinin sevincini yaşatdı.

Ardı Səh. 4

# SON 19 İL: Güclü dövlət, güclü ordu, qalib Lider!

*Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir.*

Əvvəli-Səh-3

2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusunun Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandanlığı ilə qazandığı Şanlı Qələbə təkcə Azərbaycan tarixində deyil, dünya hərb elminin tarixində də mühüm izlər qoydu. Torpaqlarımızın azad olunması əmrinə daim hazır olan Azərbaycan Ordusu düşmənin təxribatlarının qarşısını alınması ilə bağlı Prezident, Müzəffər Ali Baş Komandanın əmri ilə genişmiqyaslı əks-hücum əməliyyatına - Vətən müharibəsinə başladı. Döyüşlərdə bir addım da geri çəkilməyən Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbə vuraraq, 44 gün ərzində - noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 300-dək kəndi işğaldan azad etdi. Düşmənin tam məğlubiyyəti ilə nəticələnən bu müharibə noyabrın 10-da Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzalamaları ilə başa çatdı. Bəyanata uyğun olaraq, noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları Azərbaycana təhvil verildi. Bəli, bu hərəylikdən - "Dəmir yumruğ"a gedən, güclənən, möhkəmlənən Qalib Ordudur.

### 44 GÜNDƏ MÜMKÜNSÜZÜ MÜMKÜN EDƏN GÜCLÜ AZƏRBAYCAN ORDUSUDUR

Azərbaycanın zəngin dövlətçilik tarixində güclü ordunun yaradılması hər zaman prioritet məsələlərdən olub. Müasir Azərbaycan dövlət müstəqilliyinin bərpasına 1991-ci ildə nail olsa da, vahid komandanlığa əsaslanan nizami və mütəşəkkil, ən əsası, müstəqilliyimizə və dövlətçiliyimizə qarşı yarana biləcək hər hansı təhdidin qarşısını almağa qadir ordunun yaradılması Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra mümkün oldu. Ali Baş Komandan, Prezident İlham Əliyev də çıxışlarının birində demişdi ki, müasir mütəşəkkil ordu yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Hadisələrin sonrakı inkişafının sübut etdi ki, 1993-cü ilin 15 iyununda Ulu öndər Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra ölkəmizdə bütün sahələr kimi ordu quruculuğu prosesi də sürətlə inkişaf etməyə başladı. Və bu uğurlu siyasətin layiqli davamçısı son 19 ildə Prezident İlham Əliyevin diplomatik və "Dəmir siyasəti" nəticəsində 44 gündə mümkünsüzü mümkün edən Güclü Azərbaycan Ordusu 30 illlik torpaq həsrətinə son qoyaraq qələbə Zəfərinə nail oldu. Bu Zəfər qələbəsi Qətiyyətli Lider, müzəffər Ordu, yenilməz xalq birliyi Azərbaycanın yeni və möhtəşəm tarixini yaratdı. Silahlı Qüvvələrimiz döyüş meydanında öz qəhrəmanlıqlarını sərgilədi.

Son 19 il ərzində Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq tədbirlərdə bəyan edirdi ki, Ermənistan Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həlli prosesinə ciddi səy göstərməsə, Azərbaycan torpaqlarını müharibə yolu ilə geri qaytaracaq. Və bunu da etdi. 2020-ci il sentyabrın 27-də başladığımız 44 günlük Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev cənablarının "dəmir yumruğu" düşmənlərimizi acı və tarixi məğlubiyyətə düçar etdi. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat Ermənistanın məğlubiyyəti haqqında kapitulyasiya aktı oldu. Bu Bəyanatı imzalamaqla Dağlıq Qarabağ ifadəsi gündəmdən çıxdı və Azərbaycanda belə bir ərazi vahidi artıq mövcud deyil. Bəli, Prezident İlham Əliyevin nəyi necə və vaxt etmək lazım olduğunu çox yaxşı bildiyi siyasətin nəticəsi budur.

Azərbaycan Prezidenti İlham Əliyev xalqa dəfələrlə etdiyi müraciətlərində bildirib ki, biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq: "Biz öz torpağımızda döyüşürük, vuruşuruq. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və biz haqq yolundayıq. Bizim əsgərimiz xilaskar əsgərdir. Çünki öz doğma dədə-baba torpağını işğalçılardan azad edir". Bu gün qürurla bütün dünyada sözümüz keçərli, başımız ucadır. Bu, Müzəffər Azərbaycan ordusunun gücüdür, potensialıdır. Ali Baş Komandanın rəhbərliyi ilə bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü Silahlı Qüvvələrinə çevrilib, regionun və dünyanın 50 güclü orduları sırasına yüksəlib. Və 2022-ci il dövlət büdcəsindən müdafiə və milli təhlükəsizlik istiqamətləri üzrə 4 milyard 489 milyon 892 min 429 manat vəsait ayrılıb. 2022-ci ildə müdafiə qüvvələri istiqamətləri üzrə 2 milyard 153 milyon 165 min 727 manat, milli təhlükəsizlik istiqamətləri üzrə 285 milyon 501 min 146 manat, sərhəd xidməti istiqamətləri üzrə 441 milyon 585 min 091 manat, müdafiə və milli təhlükəsizlik sahəsində tətbiqi tədqiqatlar istiqamətləri üzrə 4 milyon 119 min 118 manat, müdafiə və milli təhlükəsizlik sahəsinə aid edilən digər fəaliyyətlər istiqamətləri üzrə 1 milyard 605 milyon 521 min 347 manat, xüsusi müdafiə təyinatlı layihələr və tədbirlər üzrə 1 milyard 600 milyon 442 min 500 manat vəsaitin ayrılması nəzərdə tutulub.

### PREZİDENT İLHAM ƏLİYEVİN SƏRƏNCAMLARI İLƏ 76 MİN 349 HƏRBİ QULLUQÇU MÜXTƏLİF ORDEN VƏ MEDALLARLA TƏLTİF EDİLİB

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması uğrunda aparılan hərbi əməliyyatlarda iştirak edərək igidlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş Silahlı Qüvvələrimizin hərbi qulluqçuları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunublar. Dövlətimizin başçısının iyunun 24-də imzaladığı sərəncamlarla 11365 nəfər "Füzulinin azad olunmasına görə", 11831 nəfər "Xocavəndin azad olunmasına görə", 3435 nəfər "Zəngilanın azad olunmasına görə", 10211 nəfər "Cəbrayılın azad olunmasına görə", 5867 nəfər "Qubadlının azad olunmasına görə", 5784 nəfər "Şuşanın azad olunmasına görə", 3522 nəfər "Ağdamın azad olunmasına görə", 4225 nəfər "Kəlbəcərin azad olunmasına görə", 2643 nəfər "Laçının azad olunmasına görə", 10647 nəfər "Suqovuşanın azad olunmasına görə", 731 nəfər "Vətən uğrunda", 616 nəfər "İgidliyə görə", 2893 nəfər "Cəsur döyüşçü", 786 nəfər "Döyüşdə fərqlənməyə görə", 1743 isə "Hərbi xidmətlərə görə" medalları ilə təltif ediliblər.Azərbaycan Prezidentin digər Sərəncamı ilə 2 nəfər "Qarabağ", 28 hərbiçi "Azərbaycan Bayrağı", 13 nəfər 3-cü dərəcəli "Rəşadət", 7 nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunublar. Ümumilikdə təltif olunanların sayı 76 min 349 nəfərdir.

### QÜDRƏTLİ ORDU, GÜCLÜ İQTİSADİYYAT, BEYNƏLXALQ ARENADA ÖNƏMLİ MÖVQE, MÜSTƏQİL XARİCİ SİYASƏT VƏ QALİB ÖLKƏ

Bəli, qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu, öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. Və bu gün biz həqiqətən tarixi günlər yaşadıq və yaşayırıq. Xalqımıza Qarabağ Zəfərini bəxş edən, bizi qalib xalqa çevirən Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin "güclü dövlət" konsepsiyanın əsasını təşkil edən üç mühüm güc - iqtisadi, siyasi, hərbi güc və onların vəhdəti Azərbaycanın Vətən müharibəsinin başlıca hərəkətverici qüvvəsi oldu. Bu gün hər bir vətəndaş, bütün dünya hərbçilərimizin peşəkarlığını, ordumuzun gücünü gördü. Onu da gördü ki, Güclü Azərbaycan Ordusu və məğrur və rəşadətli əsgərlərimiz Ali Baş Komandanın əmrlərini yerinə yetirərək 44 gündə təcavüzkar Ermənistanın 30 il işğal altında saxladıqları torpaqlapımızdan iti qovan kimi qovdular: "İndi biz göstərdik kim-kimdir. İti qovan kimi qovuruq onları! Azərbaycan əsgəri onları iti qovan kimi qovur! İşğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılır! Onların səngərlərində Azərbaycan əsgəri dayanır! Onların postları bizim əlimizdədir! Onların tanklarını biz sürürük! Onların digər silahlı texnikaları bizim əlimizdədir, yük maşınları bizim əlimizdədir! Biz xilaskar missiyamızı icra edirik və edəcəyik!".Budur, Azərbaycan xalqının, əsgərinin əzmi, rəhbərinə, xalqına, torpağına, Vətəninə sadiqliyi. Bu qələbənin əsası isə Ali Baş Komandan, Prezident İlham Əliyevin yeni inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən çoxşaxəli islahatlar, kompleks tədbirlər sayəsində əldə edilən uğurlardır. Bu hər il dövlət büdcəsində müdafiə xərclərinə böyük vəsaitin ayrılması, ölkənin müdafiə sənayesi yaradıldı, ordumuz ən müasir silahlarla təchiz edilməsinin reallığıdır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasında yer alır. Düşmənlə üz-üzə hərb meydanında Zəfər qazanmağımızın səbəblərindən bir də məhz bu amildir. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır.

### MÜSTƏQİLLİK TARİXİNİN ƏN BÖYÜK ZƏFƏR BÜDCƏSİ

44 günlük Vətən müharibəsinin qalib dövlətinin 2022-ci il üçün hazırlanan iqtisadi konstitusiyasını zəfər büdcəsi də adlandıra bilərik. Çünki bu, 30 il əvvəl müstəqilliyini bərpa etmiş bir ölkənin müstəqillik tarixinin ən böyük büdcəsidir. Əgər Vətən müharibəsi Azərbaycanın hərbi gücünün təntənəsi oldusa, gələn ilin büdcəsi isə ölkəmizin iqtisadi qüdrətini təcəssüm etdirən reallıqdır. Çünki Azərbaycan son 19 ildə dünyanın heç bir dövlətinə müyəssər olmayan sürətli inkişaf yolu keçib. 2003-cü ildən bu yana iqtisadiyyatın üç dəfədən çox artması, ölkə iqtisadiyyatına 300 milyard dollara yaxın investisiya yatırılması bunu təsdiq edən ən vacib faktlardır. Tarixi qələbəmizin təminatçısı olan Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin daha da möhkəmləndirilməsi, dövlətin milli təhlükəsizliyinin gücləndirilməsi, işğaldan azad edilmiş ərazilərdə hərbi hissələrin yerləşdirilməsi, bərpa edilmiş dövlət sərhədinin etibarlı qorunması üzrə tədbirlərin maliyyələşdirilməsi növbəti ilin büdcəsinin prioritet xərclərinin vacib istiqamətləri kimi qalacaq. Belə ki, bu ilin dövlət büdcəsi xərclərinin 15 faizi, yəni 4 milyard 490 milyon manat həcmində vəsait bu məqsədlər üçün nəzərdə tutulub.

Əlbəttə ki, bu gün Azərbaycanın qazandığı uğurları şərtləndirən əsas amil İlham Əliyevin düşünülmüş iqtisadi konsepsiyasının tam doğru formada icrasıdır. Bütün bunlar isə verilən vədlərin uğurla reallaşması nəticəsində baş tutub. Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur. Bu günün reallıqları onu göstərir ki, Azərbaycan düzgün yolda gələcəyə doğru inamla addımlayır.Bir sözlə, bu gün Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrimizdə baş verən keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Çünki güclü ordu isə güclü dövlət deməkdir.Və beləliklə, bu qələbənin nümayişi 10 dekabr 2020-ci ildə keçirilən Zəfər Paradında bir daha dünyaya göstərildi. Bu Paradla Qarabağ Azərbaycandır! nidasının təntənəsi, "Dağlıq Qarabağın" statusunun olmayacağının Azadlıq meydanında nümayişi, işğalçı Ermənistanın yeni erməni dövlətinin yaradılması planlarının üstündən birdəfəlik xətt çəkməsinin nümayişi idi.

Bəli, ruhun şad olsun, Ulu Öndər, Qarabağ Azərbaycandır! Azərbaycan xalqının Qalib Lideri, Azərbaycan xalqının Prezidenti İlham Əliyev dəmir siyasətinin nəticəsində "Dağlıq Qarabağ" problemi yoxdur! Prezident İlham Əliyev bildirib ki, biz döyüş meydanında, siyasi müstəvidə Qələbə qazanmışıq və bu Qələbə ölkəmiz üçün yeni dövr açır. Bu dövr inkişaf, təhlükəsizlik, tərəqqi dövrü olacaqdır: "Bu dövrlə bağlı müraciətlərimi yenə də hər bir Azərbaycan vətəndaşının arzuladığı sözlərlə yekunlaşdırmaq istəyirəm: Cəbrayıl bizimdir, Füzuli bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Kəlbəcər bizimdir, Laçın bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan xalqına! Yaşasın Azərbaycan!".

**RƏFİQƏ KAMALQIZI**

# Siyasi partiyaların rəhbərləri və bir qrup politoloq Zəngilanda səfərdə olub

***Ölkədə fəaliyyət göstərən siyasi partiya nümayəndələrinin, tanınmış politoloq və siyasi şərhçilərin, habelə media nümayəndələrinin bu gün Zəngilan rayonuna səfəri təşkil olunub. Səfər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə reallaşıb.SİA xəbər verir ki, səfərin ilk ünvanı Cəbrayıl rayonu olub. Burada səfər iştirakçılarına Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən aparılan minatəmizləmə fəaliyyəti barədə geniş məlumat verilib.***



Düşmən tərəfindən basdırılmış minaların zərərsizləşdirilməsi prosesini izləmək fürsəti də yaradılıb. Səfər iştirakçıları, həmçinin Füzuli-Zəngilan (Ağbənd) avtomobil yolunda Agentlik tərəfindən görülən işlər barədə geniş məlumatlandırılıb, eyni zamanda, sahələrdə aparılan minatəmizləmə əməliyyatlarında mexaniki minatəmizləmə maşınlarının işi ilə də tanış olublar. Sahələrdə aparılan minatəmizləmə əməliyyatlarında minaaxtaran itlərlə təmizləmə proseslərini də səfər iştirakçılarına izləmək imkanı yaradılıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi tərəfindən verilmiş məlumatları dinləyən səfər iştirakçıları mina xəritələrinin Azərbaycana təhvil verilməsi faktını rəsmi İrəvanın növbəti hərbi cinayəti kimi bir daha qiymətləndiriblər.

Mina xəritələrindən Ermənistanın siyasi spekulyasiya məqsədilə istifadə etdiyini qeyd edən Azərbaycan Respublikası Prezidenti







Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev mövcud istiqamətdə həqiqətlərin beynəlxalq ictimaiyyətinin diqqətinə çatdırılması prosesində bütün siyasi partiyaların fəal iştirakının əhəmiyyətini vurğulayıb.

Aparılan fikir mübadiləsi çərçivəsində qeyd olunub ki, mülki əhalinin ölümünə və insan faciəsinə səbəb olan Ermənistanın mina xəritələri ilə manipulyasiyalarına son qoyulmalı və beynəlxalq ictimaiyyət bu hərbi cinayətlərə qarşı adekvat tədbirlər görməlidir.

Zəngilan rayonunda səfərdə olan Azərbaycanda fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri və bir qrup politoloq Həkəri çayına balıq buraxılma mərasimində də iştirak ediblər. Partiya sədrləri prosesə qoşularaq çaya balıq buraxıblar. Mərasimdə iştirak edən qonaqlara Ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev tərəfindən məlumat verilib ki, Həkəri çayına indiyədək 10 mindən artıq farel balığı buraxılıb. Diqqətə çatdırılıb ki, çayın özündə qırmızı balıqlar da var.

Daha sonra səfər iştirakçıları bilavasitə Zəngilana üz tutublar. Səfər iştirakçıları 2021-ci ilin aprelində təməli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qoyulmuş və cari ilin 27 may tarixində bilavasitə Dövlət Başçısının iştirakı ilə birinci mərhələsinin açılışı olmuş "Ağıllı kənd" layihəsi ilə yaxından tanış olmaq imkanını qazanıblar.

***Ardı Səh. 6***

# Siyasi partiyaların rəhbərləri və bir qrup politoloq Zəngilanda səfərdə olub







Əvvəli-Səh-5

Zəngilanda səfər iştirakçılarını qarşılayan kənd təsərrüfat naziri İnam Kərimov qonaqlara layihə haqqında geniş məlumat verib.

Qeyd edək ki, layihənin icrası ilə bağlı 110 hektardan çox ərazidə tikinti işləri aparılır. Burada 200 fərdi ekoloji evin, ikimərtəbəli 4 qeyri-yaşayış binasının, 360 şagird yerlik məktəbin və 60 yerlik uşaq bağçasının tikintisi sürətlə davam etdirilir.

Səfər çərçivəsində iştirakçılar Ağalı kəndində yaradılmış Dövlət Xidmətləri Mərkəzi ilə tanış olublar. Burada "Azərpoçt" MMC-nin rayon şöbəsi, "ASAN xidmət" mərkəzi, DOST mərkəzi, Kiçik və Orta Biznesin İnkişafı Mərkəzi fəaliyyət göstərəcək. Bu mərkəzlərdə kənd sakinlərinə sosial təminat və məşğulluq sahəsində 100-dən çox xidmət onlayn formada göstəriləcək.

Daha sonra səfərdə iştirak edən siyasilər Ağalı kəndində "Gillmed" tikiş fabriki, ailə sağlamlıq mərkəzi (tibb məntəqəsi), uşaq bağçası və kənd orta məktəbi ilə də tanış oldular. Səfər iştirakçıları Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə təmir olunan Zəngilan şəhər məscidini də ziyarət ediblər.

Səfər iştirakçılarına Qarabağın "Yaşıl enerji" zonasına çevrilməsi prosesində Zəngilanın xüsusi rolu haqqında da geniş məlumat verilib. Eyni zamanda ölkə siyasiləri Zəngilandan keçən loqistik layihələr haqqında da məlumatlandırılmışlar. Səfər iştirakçılarına inşa olunan Zəngilan Beynəlxalq Hava Limanı, ümumi uzunluğu 124 kilometr olacaq Zəngilan-Horadiz avtomobil yolu, eləcədə Horadiz-Zəngilan-Ağbənd beynəlxalq dəmir yolu haqqında da məlumat verilib. Zəngilan rayonunun ərazisindən keçən həm dəmir yolu, həm avtomobil yolu nəinki Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək, eyni zamanda, beynəlxalq yükdaşımaları üçün yeni beynəlxalq bir yol olacaq.

Sonda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev iştirakçılara və əlaqədar dövlət qurumlarına minnətdarlığını bildirib.

Səfər çərçivəsində siyasilər Zəngilanın turizm potensialı ilə də tanış olublar. Gözəl meşələr, dağlar, bulaqlar, çaylar və beynəlxalq hava limanı, dəmir yolu, avtomobil yolları bütün bunlar turizmin inkişafı üçün zəmin yaradırlar. Səfər iştirakçılarına bildirilib ki, Zəngilan rayonunun turizm potensialı digər rayonlarda yaradılacaq turizm imkanları ilə də uzlaşdırılacaqdır. Burada otellər, istirahət zonaları yaradılacaq və kənd turizmi də inkişaf olunacaqdır. Yaradılacaq yeni infrastruktur Zəngilana qayıdacaq insanlar üçün məşğulluq və gəlir mənbəyi olacaq. Səfərdə iştirak edən ölkə siyasiləri Bəsitçay Dövlət Təbiət Qoruğunu ziyarət ediblər. Bununla da ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri və bir qrup politoloqun Zəngilan rayonuna səfəri başa çatıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə reallaşan siyasi dialoq çərçivəsində təşkil olunan bu cür səfərlər siyasi proseslərin iştirakçıları arasında sağlam əməkdaşlıq münasibətlərin və demokratik məzmunlu dayanaqlı dialoq ənənələrin dərinləşməsinə xidmət edir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında işgüzar mühitin və sağlam münasibətlərin qorunması məqsədilə atılan addımlar siyasi partiya rəhbərləri tərəfindən fəal şəkildə dəstəklənir. Təşviq olunan dialoq mühiti konstruktiv əməkdaşlığı, dövlət naminə şəxsi ambisiyalardan imtina olunmasını, milli həmrəyliyi, habelə etibarlı münasibətləri tərənnüm edir. Bu mənada, ölkəmizdə siyasi dialoq mühitinin təşviqinə yönəlmiş təşəbbüslər ilk növbədə Prezident İlham Əliyevin dövlət siyasətinin demokratik məzmunundan xəbər verir. Bu cür demokratik təcrübələri və Azərbaycanın siyasi reallığını nəzərə alaraq, deyə bilərik ki, siyasi dialoq vahidliyi, milli birliyi, həmrəyliyi, sabitliyi, təhlükəsizliyi və dayanıqlı inkişaf mühiti təmin edən əsas demokratik mexanizmlərdən biridir.

Xatırladaq ki, ölkənin demokratik məzmunlu siyasi dialoq təcrübəsini zənginləşdirən siyasi partiya rəhbərlərinin birgə səfərləri daha öncə Ağdam və Şuşa şəhərlərinə təşkil olunub. Belə ki, partiya rəhbərlərinin və politoloqların ilk birgə səfəri ötən il martın 17-də Ağdam şəhərinə, ikinci birgə səfər oktyabrın 7-də Şuşa şəhərinə təşkil edilib. Ölkə siyasiləri üçüncü dəfə Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə cari il iyunun 15-də Şuşa şəhərində keçirilmiş "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" adlı beynəlxalq konfransda iştirak etmək üçün birgə səfərə çıxıb, Azərbaycanın siyasi tarixində ilk dəfə olaraq müxalif siyasi partiyalar iqtidar tərəfindən təşkil olunmuş rəsmi dövlət tədbirində iştirak ediblər.

## Rusiya-Ukrayna münaqişəsi nə zaman bitəcək?



"Rusiya-Ukrayna arasında davam edən münaqişənin nə zaman bitəcəyi barəsində proqnoz vermək çətindir". Bu sözləri SİA-ya açıqlamasında politoloq İlqar Vəlizadə deyib. Onun sözlərinə görə, bunun müxtəlif səbəbləri var: "Səbəblərin biri də ondan ibarətdir ki, Rusiyanın müharibə aparmaq imkanları tükənməyib. Yəni Rusiya müharibəni davam etdirməyə israrlıdır. Həmçinin Ukrayna da müharibəni davam etdirmək fikrindədir. Çünki Ukrayna işğal edilmiş ərazilərini azad etmək istəyir. Müharibə hələ də davam edir. Təəssüflər olsun ki, müharibənin fəsadları getdikcə çoxalır. Bu səbəbdən tərəflər hər hansı bir sülh sazişini imzalamaqdan uzaqdır. Digər tərəfdən beynəlxalq ictimaiyyət də müharibənin dayandırılması ilə bağlı hər hansı bir səy göstərmir. Ona görə də təəssüflər olsun ki, müharibə hələ bir neçə ay davam edəcək".

***Arzu Qurbanlı***

## Gəncədə "Narkomaniyaya yox deyirik!" adlı fləşmob keçirilib



Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatının təşkilatçılığı ilə 26 iyun BMT-nin "Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü"nə həsr olunmuş "Narkomaniyaya yox deyirik!" adlı fləşmob keçirilib.

Heydər Əliyev meydanında baş tutan fləşmobda partiyanın fəal üzvləri yaxından iştirak ediblər. Dörd minə yaxın gəncin iştirakı ilə keçirilən fləşmobda "Narkomaniyaya yox deyirik!" şüarı canlandırılıb.

Qeyd edək ki, fləşmob Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında imzalanan tədbirlər planına uyğun olaraq hazırlanıb.

# RADİKAL MÜXALİFƏT ÜÇÜN QAÇILMAZ YOL: TARİXİN ARXİVİ

## Və ya lidersizlik faktoru "ənənəviləri" necə təlaşlandırır?



Bəhruz QULİYEV,
"SƏS" qəzetinin baş redaktoru.

***Beləliklə, mövcud konyukturada "lider" axtarışına çıxan "ənənəvilər" paralel olaraq özlərini cəmiyyətə zorla, hətta zaman-zaman hökmlə "demokratik düşərgə" adı altında sırımaqda davam edirlər. Birinci yazıda da qeyd olundu ki, təkcə "lider" axtarışına çıxılması və müxalifətin siyasi səhnəni tərk edib-etməməsi ilə bağlı ünvanlanan sualın özündə yekun cavab reallığı dayanır - "ənənəvilər" özlərinə "yeni lider" axtarırlarsa, həm əvvəlki uğursuzluqlarını, yaxud seçdikləri "liderin" keyfiyyətsizliyini etiraf edirlər, ya da ümumiyyətlə, "müxalifət hərəkatı" adlandırılan terminin hazırkı məqamda heç bir yerinin olmadığını dərk edirlər.***

### II yazı

Lakin daha bir amil budur ki, "ənənəvilər" guya (!) kreativlik və ideyaverici düşüncə tərzləri ilə özlərini "siyasi bilgin" kimi təqdim etsələr də, əslində, heç yerə getmək fikrində olmadıqlarını açıq-aşkar sübuta yetirmiş olurlar.

### Radikalizmdən imtina edərək konstruktivliyə keçid edənlər hansı sualı verirlər?

Bir tərəfdən "novatorluq" çağırışları, başqa tərəfdən isə özlərindən başqa heç bir müxalif cinahı real müxalifət kimi qəbul etməmək gerçəkliyi "ənənəvilərin" əsl "simalarını" daha qabarıq fonda təqdim etməkdədir. Ümumiyyətlə, hazırkı mövzu ətrafında baş sındıran, amma nəticəyə vara bilməyən bəlli düşərgə təmsilçiləri nədənsə vaxtilə onlardan qopmuş fərdləri hələ də özlərinə aid etməkdədirlər. Misal üçün, parlamentdə əyləşən müxalifət deputatlarının əksər çoxluğunun, məhz AXCP sıralarından çıxdıqlarını öz təbirlərincə iqtidara az qala "minnət" qoyan "ənənəvilər" unudurlar ki, həmin fərdlər məhz AXCP-nin hazırkı sədrinə qarşı etiraz olaraq bu partiyanın sıralarını tərk ediblər və eyni zamanda, əsas ittiham kimi mövcud sədrin zamanında öz liderinə qarşı amansız xəyanət etməsini göstəriblər. Bu gün daxili siyasi arenada hakimiyyətin həyata keçirdiyi siyasətinə, islahatlarına dəstək olan, ideyalarla çıxış edən, eyni zamanda yerlərdə yaşanan nöqsanların aradan qaldırılması yönündə fəaliyyət göstərən konstruktiv müxalifətə məxsus deputatlar "ənənəvilərdən" fərqli olaraq radikal xarakterli addımları əsla qəbul etmirlər. Bəli, onların düşüncə və fəaliyyət tərzləri təxminən bu sualla tamamlanır - axı nəyə görə dialoq, qarşılıqlı anlaşma və əməkdaşlıq mühitinə geniş şərait ola-ola biz dağıdıcılıq prinsiplərindən çıxış etməklə suyu bulandırmalıyıq, belə situasiya sabitliyə, dövlət maraqlarının regional arealdan beynəlxalq areala doğru genişlənməsinə əngəllər yarada bilər. Əlbəttə ki, ilk növbədə dövlətin, xalqın maraqları ön götürülməlidir və həmçinin, bu maraqlara qarşı müxtəlif mövqelərdən edilən hücumlarda da iqtidarla eyni cinahdan çıxış etmək lazımdır ki, dövlətin təməllərinə xələl toxunmasın. Bax, bu, konstruktivlikdən irəli gələn məsələlərdir.

Ancaq gəlin baxaq və nəticə hasil edək, "ənənəvilər" vaxtilə onları rədd edərək siyasi baxışlarını konstruktivlik üzərində qurmuş müxalifətçiləri AXCP-nin adına çıxarkən əsl reallığı dərk etmək qabiliyyətinə malikdirlərmi? Görünür ki, yox, heç də belə deyil.

### Adeptliyin son həddi: "yeni liderin" məhz köhnə Əli Kərimlinin olduğunu zorla ictimai rəyə sırımaq

Adeptlik (cərəyanın qızğın tərəfdarı) şakərindən qurtulmağı bacarmayan AXCP -"Milli Şura" cütlüyünün rəhbərlik "strukturları" və ətrafdakı bəzi bir neçə radikal xarakterli partiyalar 30 illik uğursuz fəaliyyətlərini bu və ya digər şəkillərdə ssenariləşdirdikləri siyasi nağıllarını yazmaqla ört-basdır etməyə çalışırlar. Xüsusilə, "Milli Şura" adlı qurumun "xanım" başbilənlərindən birinin nədənsə (?!) "yeni lider" axtarışına çıxması, özəlliklə köhnəlmiş və ictimai rəyin gözlərini döyənək etmiş bir fərdin - Əli Kərimlinin üzərində dayanması, həm də belə qənaətə gəlməyə zəmin yaradır ki, onların əsas hədəflərindən biri də cəmiyyətdə sözügedən süni mənzərəni yaratmaq, axtardıqları "yeni liderin" isə məhz Əli Kərimlinin olduğunu zorla sırımaqdan ibarətdir, yəni köhnəni "təzələmək"...

Müasir siyasi fəlsəfədə xalqın, dövlətin maraqlarının bütün digər maraqlardan üstün tutulması həm şərtdir, həm də siyasi uğuru, dəstəyi əhatə edən mühüm tandemdir. Siyasi terminlə ifadə etsək, altruizm vasitəsi yüksək siyasi əxlaqın da bariz nümunəsidir. Lakin bizlər 30 illik fəaliyyətləri dövründə - istər iqtidarda olduqları vaxtlarda, istərsə də müxalifətdəki fəaliyyətlərində nəinki bu əxlaqın, bütövlükdə bir çox sosial və siyasi əxlaqların, davranış hədlərinin onlara aid olmadıqlarını müşahidə etmişik. Bütün bunlar isə göstərir ki, əgər "Milli Şura"dakı "X" adlı "xanım" yenidən AXCP sədri Əli Kərimlinin ətrafında küçə tamaşası qurursa, bəri başdan bu tamaşasının anşlaqsız keçəcəyinə əmin olsun.

### Xalq maraqlarını ikinci, üçüncü və hətta arxa plana keçirən antaqonizmlik amili

Antoqonizmin (şəxsi maraqların dövlət və xalq maraqlarından üstün qurulması) izafiliyi isə "hakimiyyətə iddialı" olan "ənənəvilərin" ən böyük nöqsanlarıdır. Əbəs deyil ki, yalnız dövlət maraqlarına deyil, həm də daxillərində çoxsaylı qarşıdurmalara gedən həmin fərdlər sanki həyatlarının hər deqiqəsini, hər saniyəsini ziddiyyətliklə yaşayırlar. Real müxalifətçilik anlamını qavramayan, ya da müxalifətçiliyi yalnız ziddiyyətli davranış kimi anlayan bu cameə heç bir halda irəliyə gedə bilmədiyini gördükcə daha da radikallaşır, aqressivləşir və bütün bunlar siyasi çərçivədən şəxsi mənfəət çərçivəsinə doğru transfer olunur. Daha dəqiq desək, özlərinə əzbər etdikləri "xalq" termini ikinci, hətta üçüncü plana, yaxud ümumiyyətlə, arxa plana keçid alır. Xalqsız, dəstəksiz, təkcə ayrı-ayrı qruplar əldə edə bilən müxalifət isə nəinki özünə "yeni lider" axtarışına çıxmamalıdır, əksinə - siyasi səhnəni tamamilə tərk etməli, yerini isə əsl müxalifətə verməlidir!

Burada daha bir fərqli xüsusiyyəti diqqətə çatdırmaq yerinə düşərdi. Fakt budur ki, iqtidarın həyata keçirdiyi islahat mexanizmlərindən biri də gənc nəsil üçün yolların açılmasıdır. Bu gün istər yerli icra strukturlarında, istər Milli Məclisdə, istərsə də müxtəlif dövlət qurumlarında gənclərə önəm verilir və bu önəm öz uğurlu nəticələrini də əks etdirməkdədir.

Söz yox ki, dünyada heç nə əbədi deyil və əvəzlənmə prinsipləri hər yerdə var. Eləcə də siyasət mühitində həmin prinsip öz mövcudluğunu qoruyur. Belə olan halda daha bir faktor kadr potensialının artırılması tələbidir ki, hakimiyyət bu sahədə də bir sıra layihələrini gerçəkləşdirməkdədir. Həmin istiqamətdə cızılan konturlar isə bəhrəsini verir. Bəs "ənənəvilər" nə işlə məşğuldurlar?

### Məgər "ənənəvilərdə" Əli Kərimlidən, Cəmil Həsənlidən, Gültəkin Hacıbəylidən, Tofiq Yaqubludan və sair başqa insanlar yoxdurmu?

Görünən budur ki, 30 ildir eyni yerdə addımlayaraq təkcə dövlətçilik maraqlarına qarşı deyil, həm də özlərinə qarşı xəyanətlər edən radikal qruplar ümumiyyətlə, gəncliyə önəm verməyiblər. Haqlı sual irəli sürərək soruşa bilərik: məgər "ənənəvilərdə" Əli Kərimlidən, Cəmil Həsənlidən, Gültəkin Hacıbəylidən, Tofiq Yaqubludan və sair başqa insanlar yoxdurmu? Təbii ki, yoxdur! Olsa belə, baş qaldıranı, yeni ideyalar və kreativliklər irəli sürənin isə qarşısı dərhal alınır, baryerlər, manеələr qoyulur, sonda isə gənclər partiyadan uzaqlaşdırılırlar. Əsas təsir mənbəyi isə sosial şəbəkələrdir. Bu gün AXCP-nin - Əli Kərimlinin "idarəçilik" metodu trolluq siyasəti yürütməklə həyata keçirilir - baş qaldıran, etiraz edən istənilən gənc söyüşlərə, təhqirlərə məruz qalır və sonda ona da qapını çöldən çırpmaqla həyatını zəhərləyən partiya sıralarından gedir. Və biz hələ onilliklər boyu təhsillərini, ailələrini, gələcəklərini məhv edərək AXCP-nin çirkab burulğanında batan, həbslərə düşən onlarla müxalifətçi gəncləri demirik...

"Müxalifət" olaraq maliyyə gəlirlərini gizlədən AXCP kimi partiyaların gizlətmə oyunbazlıqlarının isə ayrıca faktları var və bu faktlar kifayət qədər çoxdur. Yenə də sualla müraciət edə bilərik: hərgah hakimiyyətdən hər hansı maliyyələşmə faktı mövcud deyilsə, bəs ötən illər ərzində sosial-məişət həyatınızı necə qurmusunuz? Yaxud, niyə bir dəfə də olsun gəlir mənbələrinizi müvafiq dövlət strukturuna təqdim etmirsiniz? Açığını desək, Əli Kərimlinin "dostlar yardım edir" tipli köhnə fikirləri də əlbəttə ki, qeyri-səmimiyyət üzərində qurulub və həmin "dostların" heç də ölkədə olmadıqlarını da yaxşı bilirik. Həmin "dostlar" isə dəfələrlə anti-Azərbaycan xarakterli hesabatlar, qətnamələr və s. kağız külliyyatını təkrar-təkrar dərc edən Qərb dairələridir. Hazırkı dövrə qədər "qara bank əməliyyatları" ilə məşhur olan Əli Kərimli çevrəsi də bunu yaxşı bilir. Elə xalq da "ənənəvilərin" maliyyələrinin haradan axdığını çox gözəl bilir, dərk edir.

### Kimlərinsə "siyasi təhtəlşüur" tipli çağırışlarında, "əzabkeş, əzilən rəiyyət" fonunda təqdim etdikləri yazı-pozularının heç bir təsir qüvvəsi, yoxdur, olmayacaq da...

Azərbaycan xalqında hər vəchlə, get-gedə daha da aqressiv üsullarla, hətta ən xəyanətkar gedişlərlə və eləcə də sosial şəbəkələrdə yazdıqları söz yığnağı vasitələri ilə hərəkətə keçdiklərini sanan radikal müxalifət fərdlərinə, "yeni lider" axtarışına olan və bu vasitə ilə köhnə siyasi ünsürü - Əli Kərimlini zorla sırıyan "ənənəvilərə" qarşı etimadsızlıq votumu yaranıb. Həmçinin, onu da qoyaq bir kənara. Əgər bu ətrafda istənilən fərdin "yeni lider" kimi təqdim olunması belə xalqı haqlı olaraq hiddətləndirə bilər.

Bu, həmin xalqdır ki, 44 günlük Vətən müharibəsində cəm oldu, vahid oldu və Liderinin ətrafında sıx birləşməklə yağı düşməni sarsıdıcı məğlubiyyətə uğratdı. Bu gün də güclü siyasi iradə və xalq-hakimiyyət vəhdəti təməllərini ən möhkəm dayaqlara əsaslandırıb. Və ən əsası, kimlərinsə "siyasi təhtəlşüur" çağırışlarında, "əzabkeş, əzilən rəiyyət" fonunda təqdim etdikləri yazı-pozularının heç bir təsir qüvvəsi, yoxdur, olmayacaq da. Bəli, "ənənəvilər", əslində, məlum dairələrin sifarişlərini icra edən "bolşevik ruhlu" siyasi rəiyyətdirlər və onlar həm də yuxarıda qeyd etdiyimiz kimi, antaqonizm təsirindən çıxa bilməyən qruplardırlar. Belə bir hal isə davam etdikcə xalqda, cəmiyyətdə bir fikir öz yerini daha da möhkəmləndirir - bu "müxalifət" getməlidir, özü də "təzəli", "köhnəli" dedikləri "liderləri", eləcə də yan-yörələri ilə birlikdə. Yalnız belə olan halda ölkədə siyasi, sivil müxalifət əhatəsi yarana və yalnız bu halda Azərbaycanda kirli maraqları olan xarici təsirlərin qarşısı daha keyfiyyətli vasitələrlə alına bilər.

***P.S.*** *Sonda xalq öz sözünü deyir və xalq öz sözünü, əslində, çoxdan deyib və həmin sözünü bundan sonra da dəfələrlə deməyə, təkrar etməyə hazırdır!*

# Şanlı Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasında yer alıb

*-Cənab general-polkovnik, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri kimi Sizin məsul olduğunuz sahələr barədə nə deyə bilərsiniz?*

Sualınıza cavab olaraq ilk öncə xüsusilə vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin mənə göstərdiyi yüksək etimadını doğrultmağım istiqamətindəki fəaliyyətimi və artıq bir neçə ildir ki, bu məsul işdə çalışmağımı özüm üçün ən vacib vəzifə hesab edirəm. Ümumiyyətlə, Ordumuzla bağlı əldə edilən hər bir uğurda iştirak etmək böyük qürur və sonsuz fərəh hissi doğurur.

Artıq 44 günlük Vətən müharibəsindəki şanlı qələbəmizdən sonra sübuta yetirildi ki, bu gün Azərbaycan Ordusu dünya miqyasında güclü Ordular sırasında öz nüfuzlu mövqeyini daha da artırıb. Bizim Ordumuzun gücü, döyüş qabiliyyəti, peşəkarlığı və ən əsası, döyüş ruhunun daim yüksək olması reallığı həm də hərb elminə yeniliklər gətirib. Təbii ki, bütün bu uğurlar asan əldə edilməyib və böyük zəhmətlər hesabına qazanılıb. Bu məqamda biz cənab İlham Əliyevin qətiyyəti, iradəsi və praqmatikliyi faktorunu özəlliklə vurğulamalıyıq.

*-Cənab general-polkovnik, 26 iyun - Azərbaycan Respublikası Silahlı Qüvvələr Gününə sayılı günlər qalıb. Bununla əlaqədar fikirlərinizi bizimlə bölüşməyinizi istərdik.*

Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrimizin şəxsi heyətini təbrik edir, möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətlərində müvəffəqiyyətlər arzulayıram. Doğma Vətənimiz uğrunda canlarından keçən şəhidlərimizə Allahdan rəhmət, ailələrinə və yaxınlarına səbir, qazilərimizə şəfa diləyirəm.

Məlum olduğu kimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev1998-ci ildə imzaladığı müvafiq Fərmanla Milli Ordu quruculuğunda varislik ənənələrinin bərpası istiqamətində çox mühüm addım atdı və Azərbaycan Xalq Cümhuriyyəti dövründə ilk dəfə olaraq Azərbaycan korpusunun yaradıldığı gün - 26 iyun Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü elan edildi. 1969-cu ildə Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbər seçilməsi ilə azərbaycanlıların hərbi məktəblərə daxil olmalarının təmin edilməsi, zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi, hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması ordu quruculuğu sahəsində milli maraqlarımızın nəzərə alınması istiqamətində aparılan siyasətin bünövrəsini təşkil edirdi. Xalqın təkidli çağırışlarına səs verərək 1993-cü ildə yenidən hakimiyyətə qayıdan Ümummilli Lider ordu quruculuğu sahəsində tarixi qərarlar qəbul etdi və genişmiqyaslı islahatlara start verdi. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən çıxmasına həsr olunacaqdır", - deyən Ulu Öndər ilk növbədə ölkədə vətəndaş həmrəyliyi və sabitliyin bərqərar olunmasına nail oldu. Silahlı qüvvələrin mükəmməl qanunvericilik bazası yaradıldı, dövlətçiliyi və hərbi andı hər şeydən uca tutan, hərbçi olmağı şərəf bilən, mənəvi baxımdan sağlam zabitlər hərbi hissələrin rəhbərliyinə cəlb olundular. Müəyyən qrupların və siyasi dairələrin şəxsi maraqlarına xidmət edən silahlı dəstələr buraxıldı, ayrı-ayrı qoşun növlərinin, hərbi hissələrin formalaşdırılması prosesi qısa müddət ərzində tam başa çatdırıldı, eyni zamanda orduya çağırış və fərarilik halları ilə bağlı problemlər həll edildi. Şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artırıldı, hərbi vətənpərvərlik işi gücləndirildi. Ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı və maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı.



*Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev ilə müsahibə*

Ümummilli Lider Heydər Əliyevin ideyalarının layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev strateji əhəmiyyətli sahələrində dinamik inkişafa yol açan ardıcıl və sistemli islahatlar həyata keçirərək müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizamlı və yüksək döyüş ruhu ilə seçilən Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasına nail oldu.

Dünya miqyasında ən güclü ordular sırasında yer alan Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızın azadlığı uğrunda 44 günlük Vətən müharibəsində mükəmməl döyüş taktikası ilə yeni nəsil müharibə nümunəsi göstərdi. Ötən illər ərzində Silahlı Qüvvələrdə çox ciddi və əhəmiyyətli işlər görülüb və bundan sonra da ordu quruculuğu sahəsində müvafiq tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

*-Cənab Ali Baş Komandan İlham Əliyev öz çıxışlarında Azərbaycan Ordusunun bundan sonra da gücləndiriləcəyini, dünyanın ən güclü orduları sırasında yerinin möhkəmləndiriləcəyini vurğulayır. Prezident İlham Əliyevin səsləndirdiyi bəyanatlara necə şərh verərdiniz?*

Cənab Ali Baş Komandan İlham Əliyevin tələb və tövsiyələrinə uyğun olaraq bu gün qarşımızda Silahlı Qüvvələrin, qoşun növlərinin, hərbi hissə və birləşmələrin döyüş qabiliyyətinin gücləndirilməsi, daha effektiv silahların və döyüş texnikalarının istehsalı ilə müdafiə sənayesinin genişləndirilməsi, Ordu ilə digər hərbi qurumlar arasında qarşılıqlı əlaqələrin daha da təkmilləşdirilməsi, beynəlxalq təlimlərdə iştirakın təmin olunması, hərbi qulluqçuların hüquqlarının müdafiəsi və sosial-məişət şəraitlərinin yaxşılaşdırılması kimi tapşırıqlar durur.

Xüsusilə qeyd edim ki, Prezident İlham Əliyev cənabları bu məsələlərə yüksək diqqət göstərir və öz çıxışlarında Azərbaycan Ordusunun bundan sonra da gücləndiriləcəyini, dünyanın ən güclü orduları sırasında yerinin möhkəmləndiriləcəyini vurğulayır. Bu xüsusda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi-strateji əməkdaşlığın perspektivləri baxımından müstəsna əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsinin imzalanması müdafiə qabiliyyətinin və təhlükəsizliyin möhkəmləndirilməsi, birgə təlimlərin keçirilməsi və şəxsi heyət mübadiləsi, aidiyyəti strukturların əlaqəli fəaliyyətinin təmin olunması, müştərək layihələrin reallşdırılması və müdafiə sənayesi texnologiyalarının inkişaf etdirilməsi sahəsində ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə mühüm töhfələr verəcək tarixi bir sənəddir. Azərbaycan Silahlı Qüvvələri daim Vətənin keşiyində dayanaraq, ölkənin təhlükəsizliyini, müdafiəsini və ərazi bütövlüyünün qorunmasını ən yüksək səviyyədə həyata keçirir.

*-Ötən ilin 26 Fevral tarixində keçirilən mətbuat konfransında Prezident İlham Əliyev Azərbaycan və Türkiyə arasındakı hərbi perspektivdən danışarkən demişdi: "Türkiyə ilə hərbi sahədə iş birliyimiz davam edəcək. Türk ordusu NATO-da güc baxımdan ikinci ən güclü ordudur. Biz Azərbaycanda türk ordusunun kiçik modelini yaratmaq əzmindəyik. Artıq bu sahədə əməli-praktiki işlərə start verilib". Azərbaycanda türk ordusunun modelini yaratmaq istiqamətində görülən işlər barədə məlumat verə bilərsinizmi?*

Bildiyimiz kimi, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, illik plana uyğun olaraq hər iki ölkənin quru qoşunları və hərbi hava qüvvələrinin iştirakı ilə birgə mütəmadi qaydada genişmiqyaslı döyüş atışlı taktiki və taktiki-uçuş təlimləri keçirilir. Onu da qeyd edim ki, hər bir təlim daha geniş miqyası ilə digər təlimlərdən öz yeni və çox əhəmiyyətli strategiyaları ilə fərqlənir. Bu baxımdan, iki qardaş ölkənin Silahlı Qüvvələri daim dünyanın diqqət mərkəzində dayanır, ölkələrimizin hərbi gücünü, qüdrətini daha geniş sferada nümayiş etdirir. Təbii ki, yeni standartlar da qəbul edilir və icra olunur. Əbəs deyil ki, Prezident İlham Əliyev cənabları Komando birliklərinin hazırlanması istiqamətində öz mühüm tapşırıq və tövsiyələrini verdi və artıq Azərbaycanın ərazilərini istənilən təhlükədən müdafiə edən çox güclü, peşəkar və kifayət qədər potensialı olan Komando birlikləri mövcuddur. Həmin perspektivlər isə əlbəttə ki, inkişaf etdirilir və hərbi modelin təkmilləşdirilməsi amili də daim nəzərtə tutulur.

Digər sahələrlə yanaşı, bizim hərbi-texniki sahədə, xüsusilə hərbi sənayedə ikitərəfli əməkdaşlığımız mövcuddur və bu çox önəmli faktordur. Bu elə bir əməkdaşlıqdır ki, heç bir başqa ölkələr arasında belə sıx hərbi məqsədli təmaslar mövcud deyil. Türkiyənin hazırda çox güclü hərbi sənaye potensialı var və biz də qardaş ölkənin bu potensialından faydalanırıq. Çünki Türkiyə dünyanın ən müasir hərbi-texniki silahlarına, avadanlıqlarına malikdir və onların əksəriyyəti həmin ölkənin öz milli istehsalıdır. Etiraf edək ki, Türkiyənin belə bir hərbi gücə malik olması istər-istəməz bəzi dairələri narahat edir. Cənab Prezident İlham Əliyevin Türkiyə ilə hərbi-texniki əməkdaşlığın daha da genişləndiriləcəyi barədə vurğuladığı fikirləri də qənaətə gəlməyə zəmin yaradır ki, artıq ölkələrimiz regionun stabilliyini, təhlükəsizliyini təmin etmək üçün vahid güc mərkəzinə çevrilməkdədir.

*-Məhərrəm müəllim, ümumilikdə post-müharibə dövründə həyata keçirilən işlər barədə nə deyə bilərsiniz? Məhərrəm müəllim, istərdim ki, bir qədər də Azərbaycan-Ermənistan sərhədlərinin delimitasiya prosesindən danışaq.*

Cənab Ali Baş Komandan İlham Əliyev qarşıda dayanan məsələləri açıqlayarkən vurğulayır ki, Ermənistan tərəfi yeni reallıqlarla barışmalı və bizimlə hesablaşmalıdır. Sülh və əminamanlığı bərpa etməklə regionun inkişafından Ermənistan da bəhrələnə bilər. Məlumdur ki, bu gün Ermənistan yalnız iqtisadi, sosial deyil, həm də hərbi-siyasi böhran içindədir və ölkədə hərc-mərclik davam edir. Eləcə də keçmiş hakimiyyətdən olan revanşistlərin yenidən iqtidara can atmaları 10 noyabr Bəyanatının pozulmasına yönəlmiş addımlardır. Ermənistan Bəyanatın müddəalarını icra etməzsə, onlar üçün əvvəlkindən də böyük problemlərin yaranmayacağına kimsə zəmanət verə bilməz. Onu da qeyd edim ki, artıq dünya birliyi də Azərbaycanın qələbəsini regionda sülhün möhkəmləndirilməsi istiqamətində önəmli töhfə kimi qiymətləndirir. Hesab edirəm ki, Ermənistan bu cəhdlərini nə qədər çox davam etdirərsə, hazırda düşdüyü acınacaqlı vəziyyətini daha da dərinləşdirəcək.

Mən Prezident İlham Əliyev cənablarının daha bir ifadəsini də xatırlatmaq istərdim. O, "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm", deyə bəyan etdi, məhz bu fikirlərini önə sürməklə vurğuladı ki, Azərbaycan dövləti yalnız xalqı ilə hesablaşır, xalqın maraqlarından çıxış edir. Biz şahidi olduq ki, 30 ilə yaxın dövrdə BMT Təhlükəsizlik Şurasının qətnamələri və digər nüfuzlu beynəlxalq təşkilatların qərarları icra olunmadı. 44 günlük Vətən müharibəsində Azərbaycanın Müzəffər Ordusu parlaq qələbə ilə ədaləti bərpa etdi. Buradan isə belə bir nəticə hasil etmək olar ki, vaxt, zaman hər bir hadisənin düzgün istiqamətləndirilməsində və qiymətləndirilməsində hakim rolunu oynayır.

Təəssüf ki, dünyada ikili standartlar reallığı bu gün də qalmaqdadır. Bir sıra siyasi dairələrin Ermənistanın təxribatçı əməllərinə göz yummaları, hətta ona dəstək vermələri isə onların özlərinin qəbul etdikləri hüquq prinsiplərini pozur.

Lakin Azərbaycan müstəqil dövlətdir və onun maraqlarına qarşı atılan istənilən addımın qarşısı qətiyyətlə alınır və bundan sonra da alınacaq. Ermənistanın təxribatlarına haqq qazandıran dairələr isə yaxşı olardı ki, ədalətin yanında yer alsınlar və 30 il boyunca Azərbaycanın üzləşdiyi ağır nəticələri xatırlasınlar. Əgər bunu da edə bilmirlərsə, tövsiyə edərdik ki, öz daxili problemlərini həll etməklə məşğul olsunlar. Azərbaycan öz sərhədlərini, ərazi bütövlüyünü və suverenliyini tələb olunan normalar çərçivəsində təmin edir və Ermənistan tərəfinin təxribatlarına qətiyyətli cavab verməyə daim hazırdır.

Bildiyimiz kimi, artıq delimitasiya istiqamətində işçi qruplar fəaliyyət göstərir, görüşlər keçirilir və bütün bunlara rəğmən, sərhədlərimizin möhkəmləndirilməsi və bərpası işləri tam sürətlə davam etdirilməkdədir.

***-Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradılıb. Bu barədə fikirlərinizi öyrənmək istərdik.***

Məlumdur ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunda həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradılıb. Belə ki, əvvəllər mövcud olan Silahlı Qüvvələrin Hərbi Akademiyası, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi və digər xüsusi təyinatlı təhsil müəssisələri öz fəaliyyətlərini yeni yaradılan Milli Müdafiə Universitetinin nəzdində Hərbi Elmi-Tədqiqat İnstitutu, Hərbi İdarəetmə İnstitutu, Heydər Əliyev adına Hərbi İnstitut, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi, Heydər Əliyev adına hərbi lisey, Cəmşid Naxçıvanski adına hərbi lisey və Tibb Universitetinin Hərbi Tibb Fakültəsi adı altında fəaliyyət göstərirlər və aparılan struktur islahatları nəticəsində bütün bu təhsil müəssisələri mərkəzləşdirilmiş şəkildə ordumuzun elm və hərbi təhsil sahəsində daha yüksək nəticələrin əldə etməsinə təkan verəcəkdir.

***-Məhərrəm müəllim, Azərbaycanın ərazi bütövlüyü bərpa edildikdən və işğal altında olan torpaqlar azad olunduqdan sonra bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıqlarının icra vəziyyətinin yoxlanılması üçün hərbi hissələrə səfər etmisiniz. Görülən işləri necə qiymətləndirirsiniz?***

Ölkəmizin ərazi bütövlüyü bərpa edildikdən və işğal altında olan torpaqlarımız azad olunduqdan sonra bu ərazilərdə zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyəti yoxlanılır. Bununla bağlı biz müvafiq ərazilərdə olur, görülən işlərlə maraqlanır, yerindəcə öyrənir, prosesin uğurla başa çatdırılması üçün fəaliyyətimizi davam etdiririk. Biz bir neçə dəfə əlahiddə sərhəd diviziyalarının hərbi hissə və bölmələrinə səfər etmişik. Bu ərazilərdə artıq bir sıra yeni hərbi hissələrin fəaliyyətə başlaması böyük əhəmiyyət kəsb edir. Onu da bildirim ki, bu səfərlər ardıcıllıq xarakteri daşıyır.

Bu işlərin aparılmasında cənab Prezidentin tövsiyələrindən irəli gələn məsələlərin qısa müddətdə həllini tapması daim diqqətdə saxlanılmaqdadır. Dövlət sərhədinin etibarlı mühafizəsinin təşkili istiqamətində həyata keçirilən fəaliyyətlər, o cümlədən yeni hərbi hissələrin inşası, sərhəd yollarının çəkilməsi, ərazidə hərəkətin təmin edilməsi üzrə tikinti-quruculuq işləri və təhlükəsizlik tədbirləri müvafiq qaydada həyata keçirilir. Eyni zamanda sərhəd-döyüş məntəqələrində xidmət aparan hərbi qulluqçuların xidməti-döyüş və məişət şəraitlərinin yaxşılaşdırılması üçün tədbirlər görülür. Ümumiyyətlə, mümkün təxribat cəhdlərinin qarşısının alınması istiqamətində görülən hər bir iş, həyata keçirilən hər bir tədbir bu gün ərazilərimizin mühafizəsində mühüm rol oynayır.

***-Türkiyə Prezidentinin yaxın günlərdə imzaladığı yeni qərar İlə Azərbaycanda Türkiyə Müdafiə Sənayesi Başqanlığının (SSB) müşavirliyi yaradılacaq. Sizcə, bu qərar Azərbaycan üçün hansı imkanlar yaradacaq?***

Təbii ki, ölkələrimiz arasında mövcud olan hərbi-strateji əməkdaşlığın bazasında hərbi-texniki əməkdaşlıq da dayanır. Qarşılıqlı səfərlər zamanı tərəflər hərbi-texniki əməkdaşlığın inkişaf perspektivlərini müzakirə edir və hərbi sənaye sahəsində maraq doğuran məsələlər ətrafında geniş fikir mübadilələri aparılır, qərarlar verilir. Yeni silahların, zenit-raket komplekslərinin, müxtəlif iriçaplı və başqa silahların alınması, onların tətbiqi və s. ətrafında hərbi-texniki əməkdaşlıq səviyyəsi müəyyən olunur. Azərbaycanda Türkiyə Müdafiə Sənayesi Başqanlığının (SSB) müşavirliyi isə qarşıya yeni vəzifələr qoyur və ən əsası, yaxın zamanlarda birgə istehsal müəssisələrinin də yaradılması üçün geniş imkanlar açır.

*Yeni silahların, zenit-raket komplekslərinin, müxtəlif iriçaplı və başqa silahların alınması, onların tətbiqi və s. ətrafında hərbi-texniki əməkdaşlıq səviyyəsi müəyyən olunur. Azərbaycanda Türkiyə Müdafiə Sənayesi Başqanlığının (SSB) müşavirliyi isə qarşıya yeni vəzifələr qoyur və ən əsası, yaxın zamanlarda birgə istehsal müəssisələrinin də yaradılması üçün geniş imkanlar açır.*

***-"TEKNOFEST Azərbaycan" Aerokosmik və İnnovasiyalar fesitvalını necə dəyərləndirirsiniz?***

Dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı olan "TEKNOFEST"in Azərbaycanda təşkil edilməsi Azərbaycan ilə Türkiyə arasında dostluğun, qardaşlığın və strateji müttəfiqliyin daha bir göstəricisidir.Digər tərəfdən "TEKNOFEST" festivalının ilk dəfə Türkiyə hüdudlarından kənarda, Azərbaycanda keçirilməsi olduqca əhəmiyyətli hadisədir. Çünki, "TEKNOFEST" festivalı beynəlxalq brendə çevrilməsi üçün məhz Azərbaycandan start götürdü.

Prezident İlham Əliyevin Türkiyədə Rize-Artvin Hava Limanının açılış mərasimində iştirak etməsindən sonra Prezident Rəcəb Tayyib Ərdoğanın Bakıda ilk dəfə keçirilən "TEKNOFEST Azərbaycan" festivalında iştirak etməsi bir daha Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığını, möhkəmliyini və möhtəşəmliyini sübut etdi. Söz yox ki, "TEKNOFEST Azərbaycan" festivalı Azərbaycan-Türkiyə birliyinin növbəti nümayişi, uğurlu təzahürü oldu və eyni zamanda, bu gün nəinki regional, hətta qlobal miqyasda Azərbaycan-Türkiyə birliyi və qardaşlığı önəmli amilə çevrilib. Beləliklə, Dövlət başçılarının qarşılıqlı səfərləri əsl qardaşlıq və dostluq nümunəsidir. Bu, həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, iki qardaş ölkə bir yerdədir, birliyi sarsılmazdır və əbədidir. Həmçinin bu, bir mesajdır ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bundan sonra da bir yerdə irəliyə doğru addımlayacaq, xalqlarımız bir-birinə daha da yaxın olacaq, dövlətlərimiz bundan sonra da uğurlu əməkdaşlıq edəcək, dünyaya öz sözlərini deyəcəklər.

Hesab edirəm ki, "TEKNOFEST Azərbaycan" festivalı ölkəmizdə bir çox sahədə texnoloji inkişafa, o cümlədən gənclərin müdafiə sənayesinə, aerokosmik sistemlərə marağının daha da artmasına, ümumilikdə Azərbaycanın innovasiya ekosisteminin hərtərəfli inkişafına böyük təkan verəcək."TEKNOFEST Azərbaycan" festivalına maraq göstərdi ki, bugünkü azərbaycanlı gənclər yeni innovativ məhsullar yaratmaqda iddialıdırlar.

***-2022-ci il 6-8 sentyabr tarixlərində ADEX 4-cü Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi keçiriləcək. Sizcə, ADEX sərgisi Azərbaycanın hərbi-sənaye kompleksinə necə töhfə verir?***

Qeyd edim ki, Beynəlxalq "ADEX" hərbi sərgisi regionda müdafiə sənayesi və daxili təhlükəsizliyə həsr olunmuş ən nəhəng tədbirdir və iştirakçılara həm Azərbaycanın hərbi rəhbərliyi, həm də qlobal hərbi-müdafiə ictimaiyyəti ilə görüşlər keçirmək üçün unikal imkan yaradır. O cümlədən, "ADEX" sərgisi dəniz, hava və quru qoşunları üçün nəzərdə tutulmuş məhsulların, eləcə də milli təhlükəsizlik məhsullarının təqdim edilməsi üçün ideal platformadır. Həmçinin "ADEX" sərgisi sektorun iştirakçıları, ziyarətçiləri və ekspertləri arasında təcrübə mübadiləsinə, o cümlədən məhsulların regional müdafiə sənayesi bazarının tələblərinə uyğun olaraq modernləşdirilməsinə də geniş şərait yaradır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "ADEX" sərgisini ənənəvi olaraq ziyrəti dövlət rəhbərliyinin bu sərgiyə göstərdiyi yüksək diqqətin təzahürüdür.Sərgi dünyanın bir sıra qabaqcıl dövlətlərinin nüfuzlu şirkət, təşkilat, qurum və nümayəndə heyətlərini bir araya gətirməklə respublikamızın və xarici ölkələrin güc strukturlarına ən müasir hərbi texnologiyaların, geniş çeşiddə silah və sursatların, o cümlədən bu sahədə bir sıra yeniliklərin təqdim edilməsində mühüm rol oynayır. Bu sərgidə iştirak edən ölkələrin sayının getdikcə artması onun bir çox dövlətin hərbi-sənaye müəssisələrinin diqqətini cəlb edən tədbir olduğunu təsdiq edir. Xarici ölkələrin dövlət qurumları, biznes dairələri və sənaye strukturları tərəfindən sərgiyə göstərilən böyük maraq bu tədbirin aktuallığının və əhəmiyyətinin bariz nümunəsi olmaqla yanaşı, Azərbaycanın dost və qardaş ölkələr üçün mühüm strateji tərəfdaş kimi yüksək əhəmiyyətini bir daha nümayiş etdirir. Bütü bu kimi amillər isə əlbəttə ki, Azərbaycanın hərbi sənayesinin inkişafına, tərəqqisinə öz töhfələrini verməkdədir.

Ən əsası odur ki, "ADEX" kimi bir sərginin Azərbaycanda təşkil olunması müdafiə sənayemizin öz potensialını daha yaxından tanıtmasına şərait yaradır. "ADEX" sərgisində Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi ilə yanaşı iştirak edən yerli şirkətlərin də sayı artıb, yerli hərbi sənayemizin innovasiyaları böyük marağa səbəb olur.Yaxın perspektivdə bu siyahıya yeni istehsalçıların da qoşulacağı şübhəsizdir.Bu gün həm də regional əhəmiyyətli müdafiə sənayesi platforması olan "ADEX" platformasından region ölkələri də yararlana bilər.

***-Cənab general-polkovnik, sonda əlavə etmək istədiyiniz fikirləriniz varmı?***

Bu gün Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində xeyli işlər görülür və biz əminik ki, illər boyu xarabalıq şəraitində olan doğma ərazilərimiz digər bölgələrimiz kimi hərtərəfli inkişaf edəcəkdir.

Silahlı Qüvvələrimiz cənab Ali Baş Komandanımız İlham Əliyevin bütün əmr və tapşırıqlarını yerinə yetirməyə, xalqımızın və dövlətimizin etimadını şərəflə doğrultmağa daim hazırdır.

Mən bir daha bütün hərbi qulluqçuları Azərbaycan Respublikasının Silahlı Qüvvələr Günü münasibəti ilə səmimi qəlbdən təbrik edir və uğurlar arzulayıram. Bayramınız mübarək olsun!

***Rövşən RƏSULOV***

# Nəsimi rayonunda "Sağlam gələcəyi seç - Bizdən biri ol!" adlı fləşmob keçirilib




***26 iyun BMT-nin "Ümumdünya Narkotiklər Əleyhinə Mübarizə Günü" ilə əlaqədar "Sağlam gələcəyi seç - Bizdən biri ol!" şüarı altında YAP fəallarının iştirakı ilə Nəsimi rayonunda fləşmob keçirilib.***

Nəsimi rayonunda yerləşən stadionda 170-dən çox gəncin iştirakı ilə keçirilən fləşmobda yaşıl və ağ rəngli karton lövhələrdən "Sağlam gələcəyi seç - Bizdən biri ol!" şüarları yaradılıb.

Qeyd edək ki, fləşmob Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı, "Azərbaycan Televiziya və Radio Verlişləri" QSC və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupu arasında imzalanan tədbirlər planına uyğun olaraq hazırlanıb.

# Müzəffər, qalib Azərbaycan ordusu!

***Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılması müstəqil Azərbaycanın dövlət quruculuğunun mühüm nailiyyətlərindən biridir. Ordumuzun yaradılması prosesi əslində ölkəmizin müstəqilliyinin tarixidir. 1918-ci il mayın 28-də yaranmış Azərbaycan Demokratik Respublikasının cəmi 23 ay yaşamasına baxmayaraq, ölkədə çox böyük nailiyyətlərə imza atmışdı. Görülən işlər sırasında ordu quruculuğu sahəsindəki tədbirlər böyük əhəmiyyət kəsb edir.***



Təhlil

Azərbaycan Demokratik Respublikası hökumətinin qərarı ilə 1918-ci il iyunun 26-da ilk hərbi hissə - əlahiddə korpus yarandı. Bu qərar Şərqin müsəlman aləmində ilk demokratik hökumətin ordusunu yaratmasına hüquqi əsas verdi. Bunun ardınca ölkədə hərbi mükəlləfiyyət - orduya çağırış haqqında hökumət tərəfindən fərman verildi. Avqustun 1-də AXC-nin Hərbi Nazirliyi təsis edildi. General Səməd bəy Mehmandarov dekabrın 25-də hərbi nazir, general-leytenant Əliağa Şıxlinski nazir müavini təyin edildilər. Qısa zaman məsafəsində Azərbaycanda milli ordu quruculuğunda uğurlar əldə edildi. Bu gün həmin tarixdən bir əsrdən artıq zaman ötür. Tarixi varislik ənənəsinə uyğun olaraq Ümummilli Lider Heydər Əliyevin fərmanı ilə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Milli Ordunun yarandığı 26 iyun günü Azərbaycan Silahlı Qüvvələri Günü kimi bayram edilir.

## AZƏRBAYCAN ORDUSUNUN GÜCÜ DÖVLƏTİN QÜDRƏTİNİN GÖSTƏRİCİSİDİR

Azərbaycan xalqı bu gün torpaqlarını işğaldan azad etmiş xalq olaraq, qürurla, məğrurluqla yaşayır. Otuz ilə yaxın bir zamanda erməni işğalında olan torpaqlarını azad edən Azərbaycan bu gün yeni bir dövrünə qədəm qoyub. Bütün dünyaya, məsafəsindən, qitəsindən asılı olmayaraq, hər bir kəsə öz böyüklüyünü, gücünü göstərdi. Əlbəttə ki, ordumuzun gücü, xalqımızın qəhrəmanlığı, xalq-iqtidar birliyi və ən əsası da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bütün dünyanı təəccübləndirən 44 günlük Vətən müharibəsində Zəfər tariximizi yazdıq. Xüsusilə də Böyük Sərkərdəlik, Liderlik bacarığına malik dövlət başçımızın rəhbərliyi ilə Milli Ordumuzun qələbəsi qaçılmaz idi. Prezident, Ali Baş Komandan İlham Əliyevin möhkəm iradəsi və böyük Sərkərdəliyi sayəsində torpaqlarımız işğalçılardan azad edildi. Əlbəttə ki, Azərbaycan Ordusunun gücü dövlətin qüdrətinin nümunəsidir. Regionun hazırlıqlı Azərbaycan Ordusu ən müasir tələblərə cavab verən ordudur. Bu, şübhəsiz ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan ordu quruculuğu siyasətinin məntiqi nəticəsidir. Hər bir dövlətin müstəqilliyinin, suverenliyinin əsas atributlarından biri də onun silahlı qüvvələridir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında azadlıq və müstəqillik ideyalarının tam təmin olunması naminə hazırlanan ordu quruculuğu prosesinə xüsusi önəm yetirilirdi. Vurğulamaq yerinə düşər ki, milli ordu quruculuğu sahəsində Ümummilli Lider Heydər Əliyev hələ Sovetlər dövründə müstəqil olmadığı zaman Azərbaycanın qəhrəmanlıq ənənələrinin davam etdirilməsini, zəngin hərb tarixinin canlandırılmasını, gənclərin qəhrəmanlıq ənənələri əsasında tərbiyə edilməsini, görkəmli hərb xadimlərinin şərəfli yolunun davam etdirilməsini hər zaman diqqət mərkəzində saxlayırdı. Bunun nəticəsi idi ki, Sovet illərində Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi vaxtlar hərbi xidmətə münasibətdə yeni bir baxış formalaşdırıldı.

## MİLLİ ZƏMİNDƏ APARILAN HƏRBİ-TƏŞKİLATİ İŞİN ZİRVƏSİ

Sovet dövründə, Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi dövrdə Azərbaycanda hərbi-təşkilati işlər bir neçə istiqamətdə aparılırdı. Azərbaycan gənclərinin hərbi xidmətə hazırlanması, onların xüsusi ixtisaslı hərbi hissələrə göndərilməsinə nail olunması məqsədi ilə ardıcıl işlər görüldü. Sovet dövründə azərbaycanlı gənclərin əksəriyyətinin arxa xidmət hərbi hissələrinə göndərilməsinin əsas səbəblərindən biri kimi onların rus dilini zəif bilməsi göstərilirdi. Hər il Azərbaycandan təxminən 60 min gənc hərbi xidmətə çağırılırdı. Lakin onların çox az hissəsi xüsusi ixtisaslar öyrədən hərbi hissələrə yola salınırdı. Gənclərin böyük əksəriyyəti isə tikinti və xidmət hərbi hissələrinə göndərilirdi. Belə olduğu halda, Azərbaycanda gənclərin hərbi xidmətə hazırlanmasına yeni tələblər irəli sürüldü. İlk növbədə, respublika məktəblərində rus dilinin tədrisinə diqqət artırıldı, Azərbaycan Dövlət Pedaqoji İnstitutu nəzdində ibtidai hərbi hazırlıq müəllimləri hazırlayan fakültə açıldı və hərbi vətənpərvərlik tərbiyəsi gücləndirildi. Xüsusi olaraq vurğulayaq ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Bakıda iki ali hərbi məktəb var idi. Biri Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi, digəri isə Bakı Ali Hərbi Dənizçilik Məktəbi. Bu məktəblərin hər ikisi İttifaq miqyasında sayılıb-seçilən məktəblərdən idi və təhsil almaq üçün İttifaqın ən müxtəlif şəhərlərindən bu məktəblərə axışıb gəlirdilər. Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin zirvəsi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbinin açılması oldu. C.Naxçıvanski adına Hərbi Lisey Ulu Öndərin diqqət və qayğısı ilə qısa vaxt ərzində ən müasir hərbi təhsil müəssisəsinə çevrildi. Nəticədə orduda peşəkar hərbçilərin sayı da artdı. Bu təhsil ocağını bitirən neçə-neçə gənc Bakının ali hərbi məktəbləri ilə yanaşı, keçmiş SSRİ-nin ali hərbi məktəblərində hərbçi peşəsinə yiyələndilər. İstər C.Naxçıvanski adına Hərbi Liseyin təşkil edilməsi, istərsə də Sovet dövründə azərbaycanlı gənclərin hərbi işə cəlb edilməsinin hansı tarixi əhəmiyyətə malik olduğu XX əsrin sonlarında əyani şəkildə aydın oldu.

## CƏNUBİ QAFQAZ REGİONUNDA ƏN GÜCLÜ ORDU

Bu gün Azərbaycan Silahlı Qüvvələrinin quruculuğu prosesi Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir və ordumuz inkişaf, təkmilləşmə dövrünü yaşayır. Silahlı Qüvvələrin Ali Baş Komandanı, Prezident İlham Əliyev çıxışlarının birində demişdir ki, müasir mütəşəkkil ordu yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük tarixi xidmətlərindən biri olub. Azərbaycan Ordusu qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilib, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam - intizama malik bir quruma çevrilib. Bu gün Qafqazda ən müasir ordu hesab olunan Azərbaycan Milli Ordusu Hərbi Hava və Hava Hücumundan Müdafiə, Hərbi Dəniz və Quru qoşunlarından ibarətdir. Bu qoşun növləri potensial rəqiblə qırıcı və bombardmançı təyyarələrlə effektiv mübarizə aparmaq iqtidarındadır. MDB çərçivəsində Azərbaycan hava hücumundan müdafiə qüvvələrinə malik ən güclü ölkələrdən sayılır. Büdcə vəsaiti ildən-ilə artırılan Azərbaycan Silahlı Qüvvələrinin buna müvafiq olaraq hərbi imkanları da genişlənir. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılır. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Ölkəmizdə yaradılan 20-dən çox hərbi zavodda müxtəlif adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur. Ölkənin yeni hərbi qüdrəti və üstünlüyü 2016-cı ilin aprel döyüşlərində nümayiş etdirilmişdi. Bu hərbi əməliyyatlar ən müasir hərbi texnika ilə təchiz edilmiş Azərbaycan Silahlı Qüvvələrinin döyüş əməliyyatlarında real üstünlüyə malik olduğunu göstərdi. Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2000 hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi. Beləliklə, Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə xalqımıza qələbə sevinci yaşatdı. Qüdrətli Azərbaycan Ordusunun qarşıya qoyulan istənilən vəzifəni - döyüş tapşırığını yerinə yetirməyə qadir olduğu bütün dünyaya nümayiş etdirildi. Eyni zamanda, Naxçıvan əməliyyatı Azərbaycan Ordusunun gücünü, hərbçilərimizin rəşadət və cəsarətini düşmənə əyani surətdə nümayiş etdirdi. Bunlarla yanaşı, Azərbaycan həm Aprel döyüşləri, həm də Günnüt zəfəri çərçivəsində zamanı əldə etdiyi şanlı qələbə ilə, eləcə də diplomatik müstəvidə qazandığı üstünlüklə öz gücünü göstərdi. Vətənə, dövlətə bağlı olan Azərbaycan Ordusunun Lələtəpədə, Naxçıvanın Günnüt, Qızılqaya yüksəkliklərinə sancdığı Azərbaycan bayrağını tezliklə erməni işğalında olan torpaqlarımızda da dalğalandıracağına inamımız sonsuz idi. Nəhayət, həmin zaman yetişdi.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə zəfər yürüşünə başlaması və qırx dörd gün davam edən hərbi əməliyyatlar nəticəsində Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağı edərək qələbə qazanması tariximizə yeni gün olaraq daxil edildi. Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə və az itki ilə həyata keçirməyə imkan verdi. Prezident İlham Əliyevin dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Ermənilərin qoyub qaçdığı hərbi texnikalar, silah-sursatlar bu gün Hərbi Qənimətlər Parkında nümayiş olunur. Vətən müharibəsində qazanılan zəfər bütün türk dünyasının qələbəsi olaraq dünyaya mesaj oldu. Bu gün hərbi əməliyyatlar zamanı istənilən nöqtədə düşmənə sarsıdıcı zərbələr endirmək qabiliyyətinə malik güclü ordumuz var.

***Zümrüd BAYRAMOVA***

# Dövlətin uğurlu xeyriyyəçilik missiyası - "YAŞAT" FONDU

***Hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir. Azərbaycan son 30 ildə olduğu kimi, Vətən müharibəsindən sonra da Azərbaycanın müstəqilliyi uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə və müharibə iştirakçısı olmuş şəxslərə diqqət və qayğı ölkəmizdə yüksək səviyyədədir.***

*Bu, Ali Baş Komandanımızın qazilərə və şəhid ailələrinə qayğısının daha bir təzahürüdür*




Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın müvafiq göstərişlərinə əsasən, dövlət qurumları bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır. Bu gün də bu istiqamətdə həyata keçirilən tədbirlər sistemli və ardıcıl xarakter daşıyır. Belə ki, bu insanların mövcud problemləri daima ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən şəxsən diqqət mərkəzində saxlanılır və onların həlli məqsədilə bütün zəruri tədbirlər müntəzəm olaraq həyata keçirilir.

### YAŞATMAQ ÜÇÜN "YAŞAT" FONDU

Şəhid ailələri və qazilərin qayğıları daim Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Bu gün Azərbaycan vətəndaşları, xarici ölkələrdə yaşayan soydaşlarımız, ayrı-ayrı iş adamları və şirkətlər xalqımızın xeyirxahlıq, humanizm amallarından qaynaqlanan prinsiplərə uyğun olaraq təmənnasız yardım ənənələrini davam etdirir, şəhid ailələrinin, hərbi əməliyyat iştirakçılarının zəruri ehtiyaclarının təmin edilməsinə xüsusi həssaslıqla yanaşır və hər bir vətəndaş bu məsələyə öz dəyərli töhfəsini verməyə çalışır. Məhz bu reallığı nəzərə alaraq, şəhid ailələrinin, hərbi əməliyyatlar nəticəsində əlilliyi müəyyən olunmuş şəxslərin sosial müdafiəsi sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlərə əlavə dəstək verilməsi istiqamətində vətəndaş cəmiyyəti təşəbbüslərinin reallaşdırılmasına xidmət edən, bunun üçün müvafiq platformanın yaradılması, habelə şəhid ailələrinin və qazilərin qayğıları ilə bağlı işlərin daha səmərəli və çevik aparılması məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il 8 dekabr tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu ("YAŞAT" Fondu) yaradıldı. Bu Fərman Azərbaycan Prezidenti tərəfindən bəyan olunmuş "Həyata keçirdiyimiz siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır" şüarının təcrübədə yüksək səviyyədə reallaşdığının əyani sübutudur. Bu gün cəmiyyət və dövlət birliyinin təcəssümünə çevrilmiş Fondun fəaliyyəti qazilərimizin xarici ölkələrdə müalicələrinin təşkili, eyni zamanda, şəhid ailələrinin və qazilərimizin məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə işlərin görülməsini özündə ehtiva edir. Çox mütərəqqi addımlardan biri olan "YAŞAT" Fonduna həm ölkə daxilindən, həm də xarici ölkələrdən ianələr edilməsi bu qurumun maddi resurslarının genişlənməsinə istiqamətlənmişdir. Fondun təşəbbüsü ilə şəhid ailələri və qazilərlə görüşlər keçirilir, onların ehtiyacları müəyyən edilir və mövcud problemlərin həlli istiqamətində müvafiq addımlar atılır. Təqdirəlayiq haldır ki, Fond öz fəaliyyətində şəffaflığı rəhbər tutmaqla, cəmiyyətə açıq hesabatları təqdim etməklə bu nəcib təşəbbüsün davam etdirilməsini hədəfləyir. Belə ki, işinin təşkili "ASAN xidmət"də çalışan şəhid ailələrinin üzvlərinə və qazilərimizə həvalə olunmuş "YAŞAT" Fonduna daxil olan vəsait ilə əlaqədar məlumatlar mütəmadi qaydada ictimaiyyətə təqdim olunur. Bütövlükdə, bu gün cəmiyyətdə Fondun şəffaf fəaliyyəti dövlətə ictimai etibarı artıran əlavə bir mexanizm kimi dəyərləndirilir.

### "BU SAHƏDƏ AZƏRBAYCAN DÜNYA MİQYASINDA ÖZ MODELİNİ ORTAYA QOYUR"

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı şəhid ailələrinə, Qarabağ müharibəsinin iştirakçıları və qazilərə göstərilən dövlət qayğısından danışaraq bildirib ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur və bu kateqoriyadan olan insanlar üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən davamlı olaraq müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilib istifadəyə verilməsi bunun əyani təsdiqidir: "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib. Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yəni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ müharibəsinin iştirakçıları, yəni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir. Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanlara bəlkə də iki il ərzində, tam, yəni növbədə duranlara mənzillər veriləcək. İkinci Qarabağ müharibəsində, həmçinin yaxın bir neçə il ərzində bu şərait yaradılacaq.

### "YAŞAT" FONDUNUN 1 İLİ: HANSI İŞLƏR GÖRÜLÜB?

"YAŞAT" Fondunun 23 iyun 2022-ci il tarixinədək Fondun hesabına 73 781 435.79 vəsait mədaxil olub. Ölkə ərazisində 2 927 şəhidin ailə üzvləri, habelə 5 599 yaralı olmaqla ümumilikdə 16 966 şəxslə görüşülüb, və 12 526 şəxsin 26 616 müraciəti icra üçün öhdəliyə götürülüb. Reallaşmış ödəniş sayı 21 848-dır. Fondun fəaliyyət istiqamətləri üzrə 61 114 757.86 AZN məbləğində vəsait xərclənib. Qalıq vəsait isə 12 666 677.93 AZN təşkil edir. Xərclənən vəsaitdən məişət şəraitinin yaxşılaşdırılması istiqaməti: 36 892 200.00 AZN, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri: 546 346.40 AZN, istehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması: 6 336 540.51 AZN, müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi: 17 339 670.95 AZN olub. Həmçinin, məişət şəraitinin yaxşılaşdırılması istiqaməti üzrə şəhid ailə üzvlərinin 4 417, itkin ailə üzvlərinin 7 və yaralıların 5 791 müraciəti olmaqla ümumilikdə 10 215 müraciət təmin edilib. 27 sentyabr 2020-ci il tarixindən sonra dünyaya gələn 102 şəhid övladı ilə bağlı Fond tərəfindən həyata keçirilən "Onlar bizə əmanət" layihəsi çərçivəsində yeni doğulmuş şəhid övladlarının zəruri xərclərinin qarşılanması məqsədi ilə 1 000 AZN məbləğində maddi yardım edilib və şəhid övladlarının adına 5 000 AZN məbləğində depozit hesabı açılıb. Hər iki valideynini itirən 7 şəhid övladının adına 5000 AZN məbləğində depozit hesabı açılıb. Təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə şəhid ailə üzvlərinin 176 və yaralıların 39 müraciəti olmaqla ümumilikdə 215 müraciət təmin edilib. Fondun təşəbbüsü ilə təhsil haqqının qarşılanması üzrə təhsil müəssisələri tərəfindən 254 637.99 AZN vəsait qarşılanıb. Təhsil haqqı qarşılanan 94 şəxsin ödənişi Fond tərəfindən, 72 şəxsin isə ödənişi Fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb. 23 iyun 2022-ci il tarixinədək Dövlət Agentliyinin "YAŞAT" Fondu ilə iş şöbəsi ilə Heydər Əliyev adına Müasir Təhsil Kompleksi, Türk Dünyası Bakı Atatürk Liseyi, XXI Əsr Beynəlxalq Təhsil və İnnovasiya Mərkəzi, Hədəf liseyi, Kaspi Tədris Mərkəzi, Evrika Liseyi və Dünya məktəbi arasında şəhidlərin övladlarına ödənişsiz təhsil alması məqsədi ilə niyyət protokolu imzalanıb. Bununla yanaşı "Dərs evi" tədris mərkəzi, "İnnab Business School", "SAT Group", "Data Science Academy" və "Mars Academy" təlim-tədris mərkəzi ilə əməkdaşlıq qurulub.

2021-2022-ci tədris ili üzrə rəsmi olaraq akkreditasiya olunmuş ali əhsil müəssisələrinə qəbul olmuş şəhid ailələrinin üzvlərinə və Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara "YAŞAT" Fondu tərəfindən birdəfəlik pul mükafatı - 2000 AZN təsis edilib. Cari günədək 47 şəxsə (29 şəhid ailə üzvü və 18 yaralı) 2000 AZN vəsait köçürülüb. Müalicə və psixoloji dəstək xərclərinin ödənilməsi istiqaməti üzrə şəhid ailə üzvlərinin 4 907 və yaralıların 4 483 müraciəti olmaqla ümumilikdə 9 390 müraciət təmin edilib.

### İSTEHLAK KREDİTLƏRİ VƏ DİGƏR BORC ÖHDƏLİKLƏRİNİN QARŞILANMASI

İstehlak kreditləri və digər borc öhdəliklərinin qarşılanması istiqaməti üzrə şəhid ailə üzvlərinin 832, itkin ailə üzvlərinin 3 və yaralıların 1 166 müraciəti olmaqla ümumilikdə 2 001 müraciət təmin edilib. Fondun təşəbbüsü ilə borc öhdəliyinin qarşılanması üzrə müəssisələr tərəfindən 125 926.74 AZN vəsait qarşılanıb. "YAŞAT" Fondu və "ASAN Könüllüləri" Təşkilatının birgə təşkilatçılığı ilə 2021-ci ilin 12 iyul tarixindən 2021-ci ilin 28 avqust tarixinədək 3 fərqli yaş qrupunu əhatə edən şəhid övladları üçün Lənkəran şəhərində, "Springs Wellness Resort" hotelində ümumilikdə 211 uşağı əhatə edən 6 düşərgə təşkil edilib. Layihə çərçivəsində hər düşərgədə uşaqlar üçün əyləncə saatları, öyrədici təlimlər, teatrlar, öz sahəsində müsbət imicə malik olan peşəkarlarla, qurum rəhbərləri ilə görüşlər, ekskursiyalar, habelə psixoloqların iştirakı ilə təlimlər, konsultasiyalar və müğənnilərin iştirakı ilə konsert proqramları həyata keçirilib. Hər düşərgə ümumilikdə 6 gün 5 gecəni əhatə edib. "YAŞAT" Fondunun, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşkilatçılığı, Bank Respublikanın dəstəyi və "ASAN Könüllüləri" Təşkilatının tərəfdaşlığı ilə 2022-ci ilin 27 may-30 may tarixlərində Qəbələdə "YAŞAT" idman düşərgəsi keçirilib. Layihədə Kürdəmir, Balakən, Şəki, Qəbələ, Şamaxı və İmişlidən olan, idmana marağı olan şəhid övladlarını əhatə edib. Layihə çərçivəsində 8-13 yaş aralığındakı 22 şəhid övladı Qəbələ Olimpiya və İdman Kompleksində peşəkar məşqçi heyəti tərəfindən futbol, taekvando, qaydasız döyüş, cüdo, boks, gimnastika və digər idman növlərinin məşqlərinə cəlb olunublar. Eyni zamanda onlar Azərbaycan kubokunun final görüşündə futbolçularla birgə meydana çıxmışdırlar. Layihənin əsas məqsədi uşaqların hərtərəfli inkişafını təmin etməklə yanaşı daha parlaq gələcək əldə etmələrinə dəstək olmaq, idmana marağı artırmaq, onların asudə vaxtlarını daha səmərəli və əyləncəli keçirmələrini təmin etməkdir.Bir sözlə, yuxarıda qeyd edilənlər bir daha onu deməyə əsas verir ki, Azərbaycan dövləti üçün İkinci Qarabağ müharibəsinə qədər olduğu kimi, indi də əsas prioritet vətəndaşlara, ələlxüsus şəhid ailələrinə və qazilərə dövlət qayğısının göstərilməsidir. Bir sözlə, həm dövlət, həm Heydər Əliyev Fondu, həm də "YAŞAT" Fondu tərəfindən şəhid ailələrinin və Qarabağ qazilərinin, eləcə də onların ailə üzvlərinin sosial təminatının gücləndirilməsi ilə bağlı mühüm işlər uğurla davam etdirilir, bu sahədə sistemli və kompleks tədbirlər həyata keçirilir. Bütün bunlar bir daha təsdiq edir ki, sosial cəhətdən həssas əhali qruplarının, o cümlədən əlilliyi olanların, şəhid ailələrinin, müharibə əlilləri və veteranlarının, mina qurbanlarının sosial müdafiəsinin gücləndirilməsi Prezident İlham Əliyevin sosial siyasətinin əsas tərkib hissəsidir. Bu gün uğurla aparılan sosial siyasət kursu və görülən işlər təsdiqləyir ki, dövlət hər zaman bu kateqoriyadan olan insanların yanındadır. Ümumilikdə, əhalisinin sosial müdafiəsinin təmin edilməsi müstəqil Azərbaycan dövlətinin qarşısında duran strateji vəzifələrdən biridir. Dövlət daim öz vətəndaşına qayğı ilə yanaşır, onun rifahının yüksəldilməsini, sosial problemlərinin həllini prioritet vəzifə kimi görür və bu istiqamətdə məqsədyönlü siyasət həyata keçirir. Iiyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, həm də bu katekoriyalı insanlarrı, onların ailələri ilə tez-tez görüşləri, onların problemləri ilə maraqlanması bir daha dövlətin öz vətəndaşına qayğısının göstəricisidir. Bu, hər zaman belə olub, bundan sonra da belə olacaq.

**RƏFİQƏ KAMALQIZI**

# Gültəkin Hacıbəylinin missiyası ölkəmizin imicinə zərbə vurmaqdır

*Yaxşı bir deyim var: "Ya olduğun kimi görün, ya da göründüyün kimi ol." Əslində bu deyimin mahiyyəti ondan ibarətdir ki, bir yolun, bir əqidən, el dili ilə desək, bir üzün olsun.*



**Cavid Osmanov**
**Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin üzvü, millət vəkili**

Amma bu fikirləri Azərbaycana qənim kəsilmiş, xalqımıza, dövlətimizə, müstəqilliyimizə qarşı hər gün xəyanət edən bir qrup qaragüruha aid etmək olmur. Nə göründükləri kimi ola bilirlər, nə də ki, olduqları kimi görünə bilirlər. Belələrindən biri də Gültəkin Hacıbəylidir. O Gültəkin Hacıbəyli ki, deputat olanda iqtidar "tərəfdarı" idi və ölkədə keçirilən siyasi kampaniyalarda təbliğatçı olaraq ön sıralarda dayanırdı. Məqsədi isə xalqa, dövlətə xidmət deyil, şəxsi mənafeyini güdmək, "dövlətini" qorumaq, varlanmaq imiş. Təbii ki, bu fikirlər irəli sürülən mülahizələr deyil. Bütün bu deyilənlər zamanın sübut etdiyi reallıqlardır. Belə ki, jurnalist araşdırmaları nəticəsində Gültəkin Hacıbəylinin Bakı şəhərində ayrı-ayrı 5 ünvanda mənzillərinin, Goranboy rayonunda 400 kv. metr sahəsi olan nəhəng villasının, Goranboy, Şamaxı, Abşeron rayonlarında və Bakının müxtəlif kəndlərində çoxlu sayda hektarlarla torpaq sahələrinin olduğu üzə çıxmışdı.

Deputat adından istifadə edərək böyük həcmdə var-dövlət, mal-mülk əldə etmiş bu şəxsin qanunsuz əməlləri üzə çıxan kimi ikinci və əsas "üzü" də bəlli oldu. Deputatlıq əldən gedən kimi Gültəkin Hacıbəylinin "demokrat", "haqq-ədalət" tərəfdarı olmaq "hissləri" qəflətən oyanaraq əsl simasını ortaya qoydu. Şəxsi maraqlarını xalqın maraqlarından hər zaman üstün tutan, hər an satqınlıq missiyasını yerinə yetirən Gültəkin Hacıbəyli əsl yerini taparaq xəyanətkarlar şurasının rəhbərləri Əli Kərimli və Cəmil Həsənlilərin "limanında yan aldı". Əslində Gültəkin Hacıbəyli buraya gələnədək bir sıra müxalif partiyaların qapısını döymüş və hamısından da rədd cavabı almışdı. Nəhayət öz ətrafına və liderinə belə xəyanət etmiş Əli Kərimlinin yanında qərarlaşması heç də təsadüfi deyil. Çünki bunların cəmləşdiyi yer milli xəyanətkarlar şurasıdır. Gültəkin Hacıbəyli və adı çəkilən digərləri heç vaxt sağlam mübarizə, sağlam müxalifliyin nə olduğunu anlaya bilməyiblər. Zamanla da öz hərəkətləri ilə özlərini ifşa ediblər. Düşüncə, yanaşma tərzləri sağlam olmadığı üçün müxtəlif çirkin oyunlara gedib, anti-Azərbaycan dairələrin əlində oyuncağa çevriliblər. Çünki bunlar üçün müqəddəs heç bir şey yoxdur. Amalları isə satqınlıq və xəyanətkarlıq edərək ölkəmizə, xalqımıza, dövlətçiliyimizə zərbə vurmaq müqabilində şəxsi mənafelərinə nail ola bilməkdir. Təki ermənipərəst ağalarından "müqəddəs missiyalarına" görə aldıqları mükafatları kəsilməsin.

Gültəkin Hacıbəylinin xarakterini müəyyənləşdirmək üçün onun deputat olanda və deputatlığı əlindən çıxanda səsləndirdiyi fikirləri müqayisə etmək kifayət edir. Deməli, Gültəkin Hacıbəyli deputat olarkən səlahiyyətlərindən xalq üçün deyil, şəxsi mənafeyi üçün sui-istifadə edərək törətmiş olduğu qanunsuzluqlar, iyrənc hərəkətlərdən deputat olmayanda da əl çəkə bilməyib. Görünür problem şəxsi xislətdədir. Belə ki, Gültəkin Hacıbəyli yaxın qohumu olan bir qadından borc adı ilə külli miqdarda pulunu almış və qaytarmaqdan imtina etmişdir. Bu hal məhkəmə predmeti olmuş, özünü haqq-ədalət, düzgünlük tərəfdarı kimi cəmiyyətə təqdim etməyə çalışan xanım Hacıbəylinin faktlarla ifşası ilə nəticələnmişdir. Hələ bu şəxsi zəmində kiməsə qarşı edilmiş bir yaramazlıqdır. Dövlətə, xalqa, ölkəyə qarşı edilən yaramazlıqlar da bir deyil, iki deyil. Sədəcə Vətən müharibəsi dövründə Gültəkin Hacıbəylinin təmsil olunduğu xəyanətkarlar şurasının yaramaz əməllərini qeyd etmək kifayət edər. Bunlar erməni tərəfindən heç də fərqli olmayaraq dezinformasiyalar yayır, Ordumuzun irəlilədiyini bildirir, çoxlu sayda yüksək rütbəli zabitlərin şəhid olduğunu və itki sayının həddindən çox olduğu haqqında əsassız paylaşımlar edir və bununla da xalqda və orduda ruh düşgünlüyü yaratmağa çalışırdılar. Hərbi əməliyyatlar bitdikdən dərhal sonra müxtəlif vasitələrlə Azərbaycanın qələbəsinə kölgə salmağa və əldə edilən böyük uğurları dəyərdən salmağa çalışırdılar. İndi isə müqəddəs şəhid ailələrinin üzvləri və qazilərimiz üzərindən öz çirkin niyyətləri üçün istifadə etməyə çalışırlar.

Bu "düzgünlük ilahəsinin" xarici dairələrə dissidentlik etməkdən tutmuş, qərəzindən Azərbaycan adını təhqir edərək "zombieland" adlandırmağa kimi bir çox yaramaz əməllərini sadalamaq olar. Özünü xalq, ölkə təəssübkeşi kimi qələmə verməyə çalışan o Gültəkin Hacıbəylidir ki, dünya bazarında neftin qiyməti kəskin ucuzlaşanda ictimai qaydada şadyanalıq edir, eyni düşərgədə olan digər xəyanətkarlara təbrik ünvanlayırdı. Bir gün eşitsək ki, anti-milli şurada sədrlik uğrunda Cəmil Həsənli, Əli Kərimli və Gültəkin Hacıbəyli arasında mübarizə başlayıb bu heç də təəccüblü olmaz. Çünki bunların həyat amalları elə xəyanətkarlıqdan ibarətdir.

Hər addımda özünü ifşa edərək çoxüzlü biri olduğunu isbatlayaraq şəxsi qərəz və hikkəli hərəkətləri ilə özü haqqında insanlarda ikrah hissləri yaradır. Özünü peşəkar siyasətçi hesab edən Gültəkin Hacıbəyli sosial şəbəkə istifadəçiləri tərəfindən daha çox trol "siyasətçi" kimi tanınır.

Olsun ki, Gültəkin Hacıbəyli xalqı sadəlövh bilir və elə hesab edir ki, onun müxalif obrazında oynadığı rol alqışlanır. Xeyr, əsla! Hər kəs çox gözəl bilir ki, onun missiyası ermənipərəst dairə və fondlardan aldığı qrantlar müqabilində ölkəmizin imicinə zərbə vurmaq, xalqımızı aşağılamaq və davası məşhur lətifədə deyildiyi kimi "yorğan davasıdır". Odur ki, maddiyyat naminə mənəviyyatı unutmaq olmaz. Gültəkin Hacıbəyli hər şeyi unuda bilər, xalq isə unutmur.

# Poetik fikir salnaməsinə yeni səhifələr yazan şair

## *Dövlət başçısının Sərəncamı ilə Rəsul Rzanın ev-muzeyi yaradılacaq*

***Azərbaycanda milli-mənəvi dəyərlərimizə dövlətimiz tərəfindən diqqət və qayğı davamlıdır. Azərbaycan Prezidenti İlham Əliyev hər zaman Vətənin dəyərli ziyalılarının xatirəsinin əbədiləşdirilməsinə, onların yaradıcı irsinin qorunaraq gələcək nəsillərə çatdırılmasına xüsusi diqqət yetirir və bu istiqamətdə müxtəlif sərəncamlar imzalayır, göstərişlər verir.***



Bu günlərdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, Dövlət Mükafatı laureatı Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında imzaladığı Sərəncamı böyük sənətkarın yaradıcılığına olan diqqətin nümunəsidir. Vurğulamaq yerinə düşər ki, Azərbaycan mədəniyyətinin Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Cəlil Məmmədquluzadə, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Bülbül, Səməd Vurğun, Niyazi və digər nəhəng simalarının memorial-xatirə, mənzil, bölgələrdə tarix-diyarşünaslıq muzeyləri məhz ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü sayəsində yaradılıb. Ümummilli Lider Heydər Əliyev tərəfindən muzey işinin inkişafı üzrə müəyyən edilmiş prioritetlər bu gün Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Sərəncama əsasən, Rəsul Rzanın Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətlərini nəzərə alınaraq Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi 21/26, mənzil 18 ünvanında Rəsul Rzanın ev-muzeyinin yaradılacaq. Rəsul Rza milli poetik fikir salnaməsinə yeni səhifələr yazan novator sənətkar kimi böyük şöhrət qazanmış, ana dilinin zənginliklərindən uğurla faydalanmışdır.

"Poeziya zəhmət və ilhamdır" avtobioqrafik qeydlərində R.Rza öz tərcümeyi-halına nəzər salaraq belə yazırdı: "Deyilənə görə, mən 1910-cu ildə mayın 19-da anadan olmuşam. Deyilənə görə deyirəm, çünki bu tarix düzgün olmaya bilər. Anadan olduğum ili və günü babam əlyazması Quranın səhifələrindən birində qeyd edibmiş. Babamı dəfn edən zaman (mənim onda üç-dörd yaşım olardı) Quran yoxa çıxıb".

Uşaqlıq yaşlarından dövrü mətbuatla yaxından tanış olan R.Rzanın mənəvi tərbiyəsində bu amillərin mühüm rolu olmuşdur. O, uşaqlıqdan ədəbi söhbətlərin getdiyi bir ailədə tərbiyə almışdır. Şair hələ uşaqlıqdan Məhəmməd Füzulinin, Xurşidbanu Natəvanın, Mirzə Ələkbər Sabirin şeirlərini anasının dilindən eşitmişdi. "İndi yaddaşımın səhifələrini varaqladıqca mən bir daha inanıram ki, mənim könlümə şerə olan məhəbbətimin ilk qığılcımlarını anam atmışdır. Anam məndə klassik poeziya xəzinəsinə, həm də xalq yaradıcılığına dərin hörmət hissi tərbiyə etmişdir", - deyə R.Rzayazırdı. 1925-ci ildə isə Gəncə Sənaye və Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, ancaq təhsili yarımçıq qoyub bir neçə aydan sonra evə, anasının yanına qayıtmışdır. O, 1930-cu ildə Bakıya köçür və burada ədəbi aləmdə yaxşı tanınan Mikayıl Müşfiq, Süleyman Rüstəm, Mehdi Hüseyn, Səməd Vurğun, Mikayıl Rəfili, Əli Nazim, Mirzə İbrahimov və başqaları ilə yaxından tanış olur, onlarla bir cəbhədə yeni ədəbiyyatın yaradıcılıq və təşkilati vəzifələrinin həyata keçirilməsində bilavasitə yaxından iştirak edir. Onunla bağlı mənbələrdə o da qeyd olunur ki. R.Rza ilk şeirləri ilə mətbuatda çıxış etməyə başlayanda yeni, inqilabi bir ədəbi proses təzəcə formalaşırdı; bir tərəfdə təcrübəli yazıçılar, digər tərəfdə isə yeni yazıçılar nəsli fəaliyyət göstərirdi və qeyd olunmalıdır ki, yeni ədəbiyyat uğrunda mübarizə, bu ədəbiyyatın ideya-bədii prinsiplərini müdafiə və qızğın təbliğ etmək bu prosesin çox mühüm bir tərəfi idi. Dərc olunan ilk şeri "Bu gün" idi. O zamandan başlayaraq öz dəstxətti ilə poeziya alminə qədəm qoydu. 1941-ci ilin axırlarında şair bir qrup siyasi işçilərlə hərbi müxbir kimi Krıma gedir, Azərbaycan diviziyasında hərbi müxbir vəzifəsində çalışır, cəbhə qəzeti "Döyüşən Krım"da işləməyə başlayır. O, müxbir kimi tez-tez ön cəbhə xəttinə gedir, müharibəni bilavasitə müşahidə edir, cəbhə həyatının çətinliklərini mənən yaşayıb, bütün bunları da şeirlərində öz təkrarsız ifadəsini tapırdı. Onun burada yazdığı ilk əsər "Bəxtiyar" şeiri idi. Həmin dövrdə o, xalqın qəhrəmanlıq mübarizəsini, qələbəyə inamını, humanizmini əks etdirən əsərlər yaratmış, 1942-ci ildə "Vətən", "Ölməz qəhrəmanlar", 1943-cü ildə "İntiqam! İntiqam...", "Qəzəb və məhəbbət" və "Vəfa" adlı şeir, hekayə və oçerklər kitablarını nəşr etdirmişdir. Qələm dostunun yaradıcılığına yüksək qiymət verən Xalq şairi Səməd Vurğun o illərdə qeyd edirdi: "Rəsul Rza romantik bir qəlblə yazdığı "İntiqam" şeiri ilə insanları, yerləri və göyləri, dağları və daşları belə intiqama-faşist cəlladlarının başına od yağdırmağa çağırdı".

Onun fəlsəfi lirikası da diqqəti çəkəndir. R.Rzanın bu poeziyasında "Rənglər" silsiləsinin ayrıca yeri vardır. Silsilə ilk dəfə 1962-ci ildə "Azərbaycan" jurnalında dərc olmuşdur. Silsilənin bu nəşri 27 şeirdən ibarət idi və bu həcmdə şairin "Duyğular və düşüncələr" kitabına daxil edilmişdir. Silsilə dərhal ədəbi tənqiddə kəskin tənqidlə qarşılandı. Lakin şair bu tənqidlərdən geri çəkilmədi; bir daha silsiləyə qayıtdı; onun "Qırmızının ümid çaları", "Firuzəyi", "Qırmızının inam çaları", "Mavinin təsəlli çaları", "Sürməyi", "Saman sarısı" poetik mətnlərini yazdı və bu yeni şeirlər "Dözüm" kitabına daxil edildi. Bütövlükdə silsilə 33 şeirdən ibarətdir.

Bakı kinostudiyasında ssenari şöbəsinin rəisi, Azərbaycan Dövlət Filarmoniyasının müdiri, Azərbaycan Sovet Yazıçıları İttifaqının sədri, Bakı kinostudiyasının müdiri, kinematoqrafiya idarəsində rəis, Azərbaycan SSR kinematoqrafiya naziri, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyasının baş redaktoru, Ümumdünya Sülhü Müdafiə Komitəsi Rəyasət Heyətinin üzvü, Afrika və Asiya Ölkələri Sovet Həmrəylik Komitəsi rəyasət heyətinin üzvü və respublika üzrə sədri, SSRİ Yazıçılar İttifaqı rəyasət heyətinin üzvü, "Novosti" Mətbuat Agentliyinin Azərbaycan şöbəsi idarəsinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin (VII çağırış) deputatı, Azərbaycan KP təftiş komissiyasının üzvü seçilmiş, Lenin və SSRİ Dövlət mükafatları komitəsinin üzvü olmuşdur.

Belə bir yaradıcılıq yolu keçən və ictimai fəaliyyəti ilə diqqətdə olan şairin - Rəsul Rzanın ev-muzeyinin yaradılması haqqında dövlət başçısının Sərəncamı yarım əsrə yaxın dövr ərzində daim yüksək bədii dəyəri ilə seçilən çox sayda əsərlər yaratmış, eyni zamanda ölkənin ictimai və mədəni həyatında yaxından iştirak edərək, genişmiqyaslı dolğun fəaliyyəti ilə tanınmış sənətkara olan diqqətin bariz nümunəsidir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qurban bayramında nələrə diqqət edilməlidir?



## DİN XADİMİ AÇIQLADI

***"İyul ayının 9-10-u Azərbaycanda Qurban bayramıdır. Qurban bayramı islamın ən gözəl bayramlarındandır. Bu bayramın xüsusi yeri və məqamı var. Paylaşmaq, bölüşmək, qardaşlıq, doğmalıq bayramıdır". Bu fikirləri SİA-ya açıqlamasında Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Hacı Fuad Nurullayev bildirib.***



Onun sözlərinə görə, Qurban bayramının çox savab və vacib əməlləri vardır: "Bu bayramın tarixinə nəzər salsaq görərik ki, İbrahim peyğəmbər Allahın imtahanı ilə sınağa çəkilir. İbrahim peyğəmbər öz övladını Allah yolunda qurban verməyə hazırlaşır. Bu zaman Allah oğlunun əvəzinə mələklər tərəfindən bir qoç göndərir. Allah İbrahim peyğəmbərin inancına bələd olur. Bu gündən sonra da Qurban bayramı qeyd edilir. Bu bayram onu tələb edir ki, kimin maddi vəziyyəti yaxşıdırsa həmin ərəfədə qoç kəsə bilər. Qurbanlıq bayramında qoçdan kiçik heyvanın kəsilməsi düzgün deyil. Qoç, keçi, inək, dəvə kimi heyvanlardan qurban kəsmək buyurulur. Qurbanlıq 3 gün davam edir və bu günlər ərzində qurban kəsmək olar. Qurban kəsən şəxs qurbanını 3 hissəyə bölməlidir. Bir hissəsi özünün olur, digər iki hissəsi isə yoxsula, fəqir-fuğaraya paylanılır. Amma qurbanın yaxşı ətini özünə götürüb, digər hissələrini paylamaq düzgün deyil. Hər bir hissəni bir pay kimi bölüşdürməlidir. Çalışmaq lazımdır ki, sağlam heyvan seçilsin, kök olsun. Qurban əti kilo-kilo satılmaz. Ət dükanlarından da kilo ilə qurban əti almaq düzgün deyil. Bu ərəfədə Qurban bayramı namazı da qılınır. İstəyən şəxslər bu günlərdə Qurban namazı qıla bilər".

***Abutel İlhamqızı***

# Bazar yanır...

***Vallah, mənə elə gəlir ki, havalar isindikcə bazar daha çox yanır. Siz necə, bu cür düşünürsünüz? Adama elə gəlir ki, o biri fəsillər heç belə olmur. Niyə yayda belə olur axı? Məgər yayda daha çox yeyirik, ona görə, yoxsa havanın istisinə görə? Bilmirəm, nəyə görə, amma vallah bazar yayda yanır. Bu yaysa od tutub yanır...***



## FELYETON

Yanmaqdan söhbət düşmüşkən, o gün elə bir hadisə baş verdi ki, vallah, dilim qurudu. Bilmədim bazarın gününə yanım, yoxsa bu insanların. Mən söyləyim, siz dinləyin, bəlkə bu söhbətdən siz bir şey anlaya biləsiniz.

O gün qonşulardan biri bazardan gəlirdi. O biri qonşu:-Məmmədqulu haradan gəlirsən bu istidə?

Məmmədqulu:- Ə, qardaş, haradan gələcəyəm, bazardan. Səhərin sübhündən durub getmişəm. Dedim bəlkə bu rayonlardan meyvə-tərəvəz gətirənləri yaxalaya bilərəm, bu uşaqlara bir həftəlik bir az yeməli ala bilərəm. Onu da ki, getməyinə getdim, amma onları tapa bilmədim ki, bilmədim. Nə bilim axı gəlib harada dayanırlar, gətirdiklərini haradan verirlər bu alverçilərə. Yox ey, belə olmaz, gərək öyrənib gələn həftə yenə gedəm, yoxsa baha qiymətə nə qədər meyvə-tərəvəz alım ki, mən yazıq, bu uşaqların qarnı doysun. Vallah, bazar yanır, isti bir tərəfdən, qiymətlər bir tərəfdən, bazar yanır. Yanacaq, qalacağıq yaman günə.

Məmmədqulu kişi bunu demişdi ki, qonşu Fəttah başladı şivənə: -Ə, necə yanı bazar yanır. Ə, Məmmədqulu, sən nə vicdansız adammışsan, gördün bazar yanır, elə qoyub gəldin, bir kömək edərdin də. Boş-boş buralarda gəzincə, qoymazdın da bazarı yanmağa. Gedib bircə alıb gətirib yeməyə cansınız. Bazar orda od tutub yanır, bu qayıdıb gəlib bura.

Kişi danışır, gözlərindən od püskürürdü. Yazıq Məmmədqulu kişi isə səhərin korundan ac-susuz evdən çıxıb, indicə yorğun-arğın qayıdıb gəlib, gəl başına gələnə bax. Fəttah kişi danışdıqca Məmmədqulu kişinin gözləri dörd olur, yazıq bilmirdi ki, bu kişiyə nə desin, necə anlatsın. Bu, mümkün də deyildi. Çünki Fəttah kişinin Məmmədqulu kişiyə aman verəcəyi əsla gözlənilmirdi.

Nə isə ki, artıq buraya toplaşanların sayı artmağa başladı. Fəttah kişi hamını yanan bazara köməyə getməyə çağırdı. Camaat başladı suallar yağdırmağa: niyə yanır, yanğına səbəb nə olub, nə vaxtdan yanmağa başlayıb, haradək yanıb, xəsarət alan çoxdurmu kimi bir anda bəlkə 20-30 sual yağdırılırdı Fəttah kişinin üzərinə. O da bir hayla-küylə cavab verirdi ki, deyərdin bəlkə Məmmədqulu kişinin əvəzindən özü bazardan gəlir.

Vallah bir kənarda dayanıb hadisəni müşayiət edən, hələ də bir şey anlamayan mən yazıq da Məmmədqulu kişi kimi susmağı üstün tutmuşdum, sakitcə hadisənin necə bitəcəyini gözləyirdim. Burada artıq danışmağın yeri yox idi. Çünki Fəttah kişi elə bir vəziyyət yaratmışdı ki, özündən başqa heç kimin səsi eşidilmirdi və elə bir həşir qoparmışdı ki, ta burada başqa nəyisə anlatmaq müşkül idi.

Nə isə, bir dəstə adam yığışdı Fəttah kişinin başına, üz tutdular bazara, köməyə, Fəttah kişinin təbirincə desək, yanğına köməyə. Yazıq Məmmədqulu kişi isə yerindəcə bayaqdan bəri necə səssizcə dayanmışdısa, o cür də tərpənmədən durmuşdu. Kişini elə bir tok vurmuşdu, nə dinir, nə də danışırdı. Hərdən nəzərlərini üzümdə gəzdirir, sanki mənim hadisəyə münasibətimi bilmək istəyirdi. İnanın ki, yorğunluqdan kişi danışa bilmirdi.

Məmmədqulu kişi heç yerindən tərpənmədi də. O vaxta qədər ki, bazara gedənlər qayıdıb gəldilər. Yenidən dəstgah başlandı. Fəttah kişi yenidən düşdü Məmmədqulu kişinin üstünə ki, ə, sən bizi dolamısan, bəs deyirdin bazar od tutub yanır? Ə, yekə kişisən, utanmırsan, yalan danışırsan? Ə, belə də zarafat olar, bu istidə bizi salmısan küçələrə?

Yanındakılar da bir tərəfdən başladılar: ə, adam qocaldıqca ağlı azalır, özünü apara bilmir kimi neçə-neçə cümlələr bir-biriin ardınca sillə kimi çırpıldı Məmmədqulu kişinin üzünə. Yazıq nə dindi, nə də danışdı. Ayağa qalxıb başını aşağı saldı, yorğun addımlarla üz tutdu evinə.

İndi təsəvvür edin ki, o gedəndən sonra burada nə söhbətlər baş verdi. Bunu yəqin yaxşı bilərsiniz. Çünki belə hadisələr bizim cəmiyyətdə o qədər baş verir ki, hamı buna alışıqdır.

Nə isə... Söhbət yenidən açıldı. Fəttah kişi yazıq Məmmədqulu kişinin söhbətini elə nağıl etdi ki, vallah bayaq orada olmasaydım, az qala mən də inanacaqdım...

Sonra nə oldu? Nə olacaq? Fəttah kişinin odlanmasının səbəbi bilindi. Sən demə Məmmədqulu kişinin axtardığı zəhmət adamlarını bu kişinin övladları hər gün səhər-səhər yaxalayıb əllərindəki məhsulları ucuz qiymətə alıb bazardakı alverçilərə baha qiymətə satırlar. Onlar da bir az üstünə qoyub biz yazıqlara satırlar.

Hə, indi anladım, Məmmədqulu kişi, bazar od tutub yanır deyəndə Fəttah kişinin hay-həşirini. Ancaq bircə onu anlamadım ki, doğrudan da Fəttah kişi söhbəti elə anlamışdı, yoxsa bu bir təşviş idi... Bir də onu anlamadım ki, biz niyə Fəttah kişini anlayırıq, amma Məmmədqulu kişini əsla...

***Mətanət MƏMMƏDOVA***

# "Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün güclü bazadır"



"Özbəkistan və Azərbaycan arasında diplomatik əlaqələrin banisi Ulu Öndər Heydər Əliyev olmuşdur. 1997-ci ildə ümummilli liderin Özbəkistana rəsmi səfəri münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcını qoydu. Səfər çərçivəsində 19 adda müxtəlif sənədlər imzalanmışdı ki, bu həmin dövr üçün çox əhəmiyyətli oldu. Belə ki, bu sənədlər içərisində Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi haqqında müqavilə böyük əhəmiyyət kəsb edir. Bu sənədlər iki ölkə arasında uğurlu əməkdaşlıq üçün güclü fundamental baza yaratdı". Bu sözləri SİA-ya açıqlamasında deputat Müşfiq Cəfərov deyib.



Onun sözlərinə görə, ümumiyyətlə, bu qarşılıqlı səfərlər iqtisadi əməkdaşlığın inkişafına, o cümlədən qarşılıqlı mal dövriyyəsinin artırılmasına, nəqliyyat və energetika məsələlərinə, habelə humanitar və mədəni əlaqələrin genişləndirilməsinə şərait yaradıb: "Özbəkistan Respublikası ilə Azərbaycan Respublikası arasında ikitərəfli əməkdaşlıq üzrə müştərək hökumətlərarası komissiyanın fəaliyyəti ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın inkişafına böyük töhfə verib. Bu günə kimi Azərbaycanla Özbəkistan Respublikası arasında 100-ə yaxın müxtəlif sahələri əhatə edən sənədlər imzalanmışdır.

Bu gün dövlət başçısı geniş tərkibli nümayəndə heyəti ilə Özbəkistana rəsmi səfər edib. Hər iki ölkənin "strateji tərəfdaşlığının dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə" imzalanıb. Həmçinin, kənd təsərrüfatı və nəqliyyat, iqtisadiyyat və müdafiə məsələləri ilə də bağlı sənədlər imzalanıb. Mən deyə bilərəm ki, Özbəkistan dövləti son zamanlar öz inkişafı ilə digər dövlətləri yaxşı mənada təəccübləndirir. Mən özüm bir müddət əvvəl dost ölkəyə səfər etmişdim, həqiqətən gördüyüm mənzərə məni çox sevindirdi. Təhsilə verilən dəyər haqqında danışılmağa dəyər. Düşünürəm ki, bundan sonra Özbəkistanın inkişafı Azərbaycanla birgə əməkdaşlıq çərçivəsində davam edəcəkdir".

Deputat sözlərinə belə davam edib: "Görüş zamanı Özbəkistan prezidenti cənab Şavkat Mirziyoyev bu il birgə Özbəkistan-Azərbaycan turizm yarmarkası keçirilməsini təklif edib. Bildiyimiz kimi Özbəkistan çox zəngin mədəni irsə, qədim abidələrə və tarixə malikdir. Düşünürəm ki, turizm sahəsində ortaq bir fəaliyyətin reallaşması hər iki ölkənin iqtisadi potensialına müsbət təsir edəcək. Mən bu səfərin böyük nəticələri olacağına inanıram. Bundan sonra hər iki ölkənin münasibətlərində real ciddi irəliləyişlər olacaqdır".

***Ayşən Vəli***

# ATƏT-in Minsk qrupu ölüb, ABŞ diriltmək istəyir, Rusiya rədd edir



**Prezident İlham Əliyev isə Bakı Forumunda öz sözünü çoxdan deyib və Minsk qrupuna "qudbay" arzularını ünvanlayıb...**

Rusiyanın Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarovanın ABŞ-ın dövlət katibinin müavini Karen Donfridin Vaşinqtonun Rusiya ilə ATƏT-in Minsk qrupu çərçivəsində əməkdaşlıq etməyə hazır olması ilə bağlı fikirlərini şərh etməsi, eləcə də həmin bəyanatı qeyri-səmimi adlandırması növbəti mümkün ehtimalları önə çıxarır. Misal üçün, Zaxarova xatırladıb ki, hələ Donfridin sözügedən bəyanatına qədər, daha dəqiq desək fevralın 24-də ATƏT-in Minsk qrupunun fransız və amerikalı həmsədrləri Rusiyadan olan həmkarları ilə kontaktlarını birtərəfli qaydada pozduqlarını bəyan ediblər və həmin bəyanatlarına heç bir izahat verməyiblər. Zaxarovanın sözlərinə görə, bu bir çox hallarda ATƏT-in Minsk qrupuna vurulan ağır və düzəldilməyəcək zərbədir.

Rusiya da Azərbaycanın dalınca açıq-aydın şəkildə nümayiş etdirdi ki, ATƏT-in Minsk qrupuna geri dönüş yoxdur

"Bu kimi məsuliyyətsiz fəaliyyətlərin bir daha təkrar olunmayacağına zəmanət verən yoxdur. Heç nəyin baş vermədiyi görüntüsünü yaratmaq da sadəcə alınmayacaq. Yeni reallıqları nəzərə almağa ehtiyac var", deyə Rusiya XİN-nin rəsmisi bildirib. Və...

Və artıq fakt bundadır ki, Rusiya da Azərbaycanın dalınca açıq-aydın şəkildə nümayiş etdirdi ki, ATƏT-in Minsk qrupuna geri dönüş yoxdur. Prezident İlham Əliyev Bakı Forumunda öz sözünü dedi və Minsk qrupuna "qudbay" arzuları ünvanlandı...

Ancaq daha bir maraqlı məqam budur ki, əslində amerikalılara da ATƏT-in Minsk qrupu elə də əhəmiyyətli deyil. ABŞ-da da anlayırlar ki, Azərbaycan Prezidenti İlham Əliyev və xalqı həmin formatı rədd edəcək.

Donfrid ABŞ-ın Rusiya ilə ATƏT-in Minsk qrupu çərçivəsində əməkdaşlıq edə biləcəyi ilə bağlı bəyanatını səsləndirərkən əslində Moskvanı təxribata çəkməyə və Zaxarovanın verəcəyi cavabı almağa çalışıb.

Bundan əlavə, Qərb Ermənistan-Azərbaycan gündəmində yalnız Avropa İttifaqının vasitəçiliyi ilə təqdim olunur, üstəlik həmin vasitəçilik Vaşinqton tərəfindən dəstəklənir. Bu baxımdan, görünən daha bir məsələ budur ki, Karen Donfrid ABŞ-ın Rusiya ilə ATƏT-in Minsk qrupu çərçivəsində əməkdaşlıq edə biləcəyi ilə bağlı bəyanatını səsləndirərkən əslində Moskvanı təxribata çəkməyə və Mariya Zaxarovanın verəcəyi cavabı almağa çalışıb və bu cavabı alıb da. ABŞ həmin vasitə ilə ictimai rəyə və xüsusilə erməni hökumətinə göstərməyə çalışıb ki, siz - yəni ermənilər Minsk qrupunu istəyirsiniz, amma müttəfiqiniz olan Rusiya bu istəyinizə blok qoyur. Ona görə də gedin əvvəlcə onlarla razılaşdırın. Beləliklə, ABŞ həmin məsələdə yaxasını kənara çəkməklə özünü təmizə çıxarmağı bacarıb.

**Erməni dipolimatiyası eyniadlı oyunda sirk kuçüyü rolunu alıb**

Ancaq sözügedən fonda ən rüsvayçı görünən məhz erməni diplomatiyası və onun başında dayanan Ermənistanın XİN rəhbəri Ararat Mirzoyandır. Hətta belə desək, bu şəxs eyniadlı oyunda sirk küçüyü rolunu alıb.

Fəqət, buna baxmayaraq və Rusiyanın da ATƏT-in Minsk qrupunu rədd etməsinə rəğmən, Ermənistan batarkən yapışdığı saman çöpündən - yəni Minsk qrupundan nə isə ala biləcəyini düşünür və bu mövzunun Paşinyan-Mirzoyan və Donfrid tərəfindən davam etdiriləcəyini bəri başdan ehtimal etmək mümkündür. Etdirməyinə etdirsinlər, amma həmin mövzunun bir daha reallaşmayacağını indidən anlasınlar, əlbəttə ki, anlamağa cəhd göstərsələr...

*Rövşən RƏSULOV*

# "Öz ağılları ilə siyasət qurmaq istəyirlər"

***"Son günlər erməni təxribatlarının artması təsadüfi deyil. Bir neçə gündür Ermənistan ərazisindəki məntəqələrdən Laçın və Kəlbəcərin yaşayış məntəqələri atəşə tutulur. Doğrudur, bizim vətəndaşlar hələlik orada yaşamasa da, orada ordumuz var, həmçinin quruculuq işləri gedir. Bu zaman da onların həyatı üçün ciddi təhlükə yaranır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.***





Onun sözlərinə görə, Azərbaycan 30 ildir ki, bu təxribatlara alışıb: "Azərbaycanla Ermənistan arasında hər hansı razılaşma gündəmə gələndə çox ciddi təxribatlar törədilir. Bunun arxasında duran və bizi sevməyərək Ermənistanı dəstəkləyən qüvvələr var. Amma Ermənistan daxilində də çox ciddi depressiya yaranıb. Son günlər Ermənistan mətbuatında Azərbaycanla Rusiya arasında bağlanmış əməkdaşlıq haqqında ikitərəfli bəyannamə çox ciddi müzakirələrə səbəb olub. Ermənilər bəyannamənin bağlanmasından 4 ay sonra başa düşüblər ki, 11-ci bənddə qeyd olunur ki, Azərbaycan və Rusiya öz ərazisində olan təxribatçı qüvvələrə qarşı birgə fəaliyyət göstərəcək".

Politoloq sözlərinə belə davam edib: "Ermənilər iddia edir ki, guya onların xəyallarını Azərbaycan və Rusiya prezidentləri məhv edib. Bəyənnamənin digər bəndlərinə də fikir verirlər və onları xüsusilə Azərbaycanla Rusiya arasında hərbi əməkdaşlıq barədə razılıq narahat edir. Onlar bəyannamə ilə tanış olduqdan sonra anlayıblar ki, Azərbaycan Ermənistanla bağlı olan bütün məsələləri Rusiya ilə həll edib. Burada kommunikasiyaların açılması ilə bağlı bəndi Paşinyana müraciət kimi göstərirlər.

Görünən odur ki, Ermənistan daxilində ciddi qarşıdurmalar var. Bu təxribatları törədənlər Ermənistan ordusunda Paşinyana tabe olmaq istəməyən qüvvələrdir. Onlar çalışırlar ki, təxribat törətsinlər və azərbaycanlılar sərhədi keçsinlər. Öz ağılları ilə siyasət qurmaq istəyirlər. Lakin hələ ki uğur əldə edə bilməyiblər və bu alınmayacaq.

Zəngəzur dəhlizi də açılacaq. Ermənistan sülh müqaviləsi imzalamağa da məcbur olacaq. Sərhədlərin delimitasiya və demarkarsiyası ilə bağlı məsələlər gündəmə gələcək. Onlar başa düşməlidir ki, artıq Qarabağ haqqınnda hansısa fikir söyləyə bilməzlər. Qatar onlar üçün artıq gedib".

*Ayşən Vəli*

# Qarabağ erməniləri Hərəkatının rəhbəri sülhdən danışdı!

***Qarabağ erməniləri Hərəkatının rəhbəri Artur Ağacanov: "Zəngəzur dəhlizi nə qədər tez açılsa bir o qədər də Ermənistan vətəndaşları, həmçinin Azərbaycan vətəndaşları hesab edilən Qarabağ erməniləri üçün yaxşı olacaq"***



Məlum olduğu kimi, 16-18 iyun tarixlərində Bakıda, Nizami Gəncəvi adına Beynəlxalq Mərkəzdə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə keçirilən Qlobal Bakı Forumunda geniş xarakterli nitqi zamanı dövlətimizin başçısı bir sıra mühüm aspektləri əhatə edən məsələlərə toxundu və qeyd etdi ki, dünyadakı yeni yanaşmalardan bəhs edərkən ötən ilin noyabrında Gülüstan sarayında keçirilən görüşdən sonra biz dünyadakı dəyişiklikləri aydın şəkildə görməkdəyik. "Dəyişiklər fundamendaldır", deyə vurğulayan ölkə başçımız baş verən hadisələr haqqında proqnozların verilməsinin hələ ki, mümkün olmadığını deyib və bəyan edib ki, bundan sonra dünyanın başqa cür olacağı indidən aydın görünməkdədir.

SİA xəbər verir ki, mövzu ilə bağlı Qarabağ erməniləri Hərəkatının rəhbəri Artur Ağacanov "İnrefax-Azerbaydjan"a maraqdoğurucu münasibətini açıqlayıb və o ilk növbədə bildirib ki, qlobal beynəlxalq tədbirdə Ermənistan nümayəndələri iştirak etməyiblər. "Hansı ki, onlar (Ermənistan nümayəndələri) Forumda bir çox maraqlı və səmərəli məsələləri eşidə bilərdilər, belə ki, Bakı Forumunda 53 ölkənin 400 nümayəndəsi, o cümlədən,bir sıra ölkələrin fəaliyyətdə olan dövlət və hökumət rəhbərləri, eks-prezidentləri və eks-baş nazirləri iştirak ediblər", Ağacanov bildirib.

Qarabağ erməniləri Hərəkatının rəhbəri qeyd edib ki, həmin vaxt Azərbaycanın, Ermənistanın və Rusiyanın baş nazirlərinin müavinləri Cənubi Qafqazda kommunikasiyaların açılması üzrə işçi qrupunun həmsədrləri çərçivəsində 25-ci Peterburq beynəlxalq iqtisadi forumunda iştirak ediblər. "Üçtərəfli işçi qrup çərçivəsində Ermənistan və Azərbaycan nümayəndələrinin danışıqları asan deyil. Lakin biz bu görüşlərdə pozitivlikləri görməkdəyik. Proses gedir. Erməni xalqı anlamalı və nəticə çıxarmalıdır. Zəngəzur dəhlizi nə qədər tez açılsa bir o qədər də Ermənistan vətəndaşları, həmçinin Azərbaycan vətəndaşları hesab edilən Qarabağ erməniləri üçün yaxşı olacaq", Ağacanov deyib.

O, əlavə edib ki, hər bir erməni harada yaşamasından asılı olmayaraq sülh və Ermənistanın çiçəklənməsini istəyir. "Lakin buna yalnız Azərbaycan və Türkiyə ilə mehriban qonşuluq sayəsində nail olmaq olar, başqa variant isə sadəcə yoxdur", Qarabağ erməniləri Hərəkatının rəhbəri bildirib.

*Rövşən RƏSULOV*



# Heydər Əliyevin gənclər siyasəti: keçmişdən bu günə

## Ulu öndərimizin bütün həyat və fəaliyyəti xalqımızın firavan gələcəyinin əsasını qoymağa xidmət edib

***1993-cü ilin may-iyununda ölkədə ictimai-siyasi böhranın yaranması, vətəndaş müharibəsi təhlükəsinin mövcudluğu o zamankı ölkə rəhbərliyini Heydər Əliyevi rəsmən Bakıya dəvət etməyə məcbur etdi. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.***

1993-cü il oktyabrın 3-də ümumxalq referendumu nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi. 2003-cü il 15 oktyabrda keçirilən prezident seçkilərində Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirak etməkdən imtina etdi və namizədliyini Azərbaycanın indiki Prezidenti İlham Əliyevin xeyrinə geri götürdü.

Ulu öndərimizin Azərbaycan xalqına ən böyük xidmətlərindən biri də onun gələcəyimizə verdiyi töhfələrdir. Heydər Əliyevin elmə, təhsilə, mədəniyyətə və sair sahələrə verdiyi önəm öz bəhrələrini verib. Ümummilli liderimiz daim məktəbliləri, tələbələri, ümumiyyətlə yeniyetmə və gəncləri diqqətdə saxlayıb, onların inkişafı üçün əlindən gələni edib.

Bugünkü müstəqil dövlətçiliyimizin üzərində bərqərar olduğu dayaqlarından biri də Azərbaycan gəncliyidir. Gənclərimizin əsil Azərbaycan vətəndaşı kimi formalaşmasında, ümummilli lider Heydər Əliyevin danılmaz əməyi, misilsiz xidmətləri var. Ulu öndərin zəngin və möhtəşəm dövlətçilik fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tutub. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərilirdi. Heydər Əliyev ölkədə gənclər siyasətinin düzgün aparılmasını çox vacib və önəmli hesab edərək deyirdi: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır."



Gənclər siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində gənclərin iştirakı, gənclər təşkilatlarına dövlət yardımı, gənc ailələrə dövlət yardımı, gənclərin məşğulluğunun təmin edilməsi, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, istedadlı gənclərə dövlət qayğısı, gənclərin mənəvi-əxlaqi tərbiyəsi və mədəni həyatda iştirakı" kimi prinsiplər əsas tutulur.

Ulu öndərimiz deyirdi: "biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik." Müasir Azərbaycanın memarı Heydər Əliyev Azərbaycan gənclərinə inanırdı və O, 1998-ci il ölkə gəncləri ilə görüşündə bunu dilə gətirərək deyirdi: "Əziz övladlar! Sizin kimi gəncləri olan, gələcəyi olan Azərbaycan basılmazdır, sarsılmazdır! Məni hədsiz sevindirən odur ki, Azərbaycanın gələcəyini möhkəm əllərdə saxlaya bilən, Azərbaycanı daim bütün bəlalardan qoruya bilən, Azərbaycanın dövlət müstəqilliyini, demokratik dövlətini qoruya bilən gəncliyi var. Bunlar sizlərsiniz, əziz övladlar!"

Heydər Əliyevin rəhbərliyi ilə təhsil ocaqlarında yüksək standartlara uyğun maddi-texniki bazanın yaradılması, müasir tədris prosesinin tətbiq edilməsi üçün təxirəsalınmaz tədbirlər həyata keçirilib. Dövlət vəsaiti hesabına müasir tələblərə cavab verən məktəblər tikilib, tədris müəssisələri yeni avadanlıqlarla, kompüterlərlə təchiz edilib.

Ulu öndərin gənclər siyasətində idmanın və mədəniyyətin inkişaf etdirilməsi və onun kütləviliyinin artırılması mühüm yer tutur. Ölkə başçısının ardıcıl səyləri sayəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkəsinə çevrilib. Respublikamızda beynəlxalq standartlara cavab verən idman komplekslərinin tikintisi bu gün geniş vüsət alıb. Bakıda Dünya və Avropa birinciliklərinin keçirilməsi ölkəmizin idman şöhrətindən, müxtəlif yarışlarda qazanılan çoxsaylı mükafatlar isə gəncliyə qayğıdan, onlar üçün yaradılmış gözəl şəraitdən soraq verir.





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

1988-1993-cü illərdə cəmiyyətimizdə hökm sürən xaos və anarxiya mədəniyyət və incəsənət sahələrinə də təsir göstərməyə bilməzdi. Həmin illərdə Azərbaycan mədəniyyəti dərin böhran içində idi. Heydər Əliyev millətin taleyi üçün misilsiz əhəmiyyət daşıyan bütün fəaliyyət sahələrinə həmişə ciddi diqqət yetirən bir siyasətçi kimi tezliklə bu vəziyyəti aradan qaldırmaq üçün mühüm tədbirlər gördü. O, hələ respublikaya rəhbərlik etdiyi 70-80-ci illərdə keçmiş SSRİ-nin nüfuzlu ali təhsil ocaqlarına axın-axın göndərdiyi gənclərin, ziyalıların, 1969-1982-ci illər ərzində respublikamızın təhsil, mədəniyyət, incəsənət sahələri üçün yaratdığı zəngin maddi və mənəvi potensialın səfərbər edilməsi hesabına müstəqil dövlətimizdə mədəniyyətin tənəzzül vəziyyətindən çıxarılması uğrunda fəaliyyətə başladı. Tez bir zamanda cəmiyyətdə elm, təhsil və mədəniyyət xadimlərinin rolu yüksəlməyə başladı. Yaradıcı ziyalıların respublikamızda aparılan quruculuq işlərinin müxtəlif sahələrinə cəlb olunmaları, əvvəlki şan-şöhrətlərinin, hörmət-izzətlərinin onlara qaytarılması mədəniyyətin, incəsənətin inkişafında böyük rol oynadı.

Heydər Əliyev ideologiyasında azərbaycançılıq məfkurəsi bu gün yaradıcılıqla davam etdirilir. Tədris prosesində milli-mənəvi dəyərlərimizin, eləcə də tanınmış dövlət xadimlərinin, sərkərdələrin, mədəniyyət, ədəbiyyat və incəsənət xadimlərinin zəngin həyat yolunun öyrənilməsinə böyük diqqət yetirilir. Qürurla deməK olar ki, bu gün Azərbaycan gəncliyi üzərinə götürdüyü vəzifənin öhtəsindən layiqincə gəlməyə çalışır və bunu bacarır: onların uğuru beynəlxalq konfranslardan, dövlət və hökumət qurumlarından, ölkələrarası debat, intellektual bilik yarışlarından eşidilir. Azərbaycan həqiqətlərini-musiqisini, ədəbiyyatını, rəqsini, folklorunu, mətbəxini, milli-mənəvi dəyərlərini dünyanın müxtəlif ölkələrində təbliğ edən gənclər, bütün səy və bacarığı ilə dövlətçilik ənənələrimizi tanıdaraq, dünya ictimaiyyəti tərəfindən sevilməsinə nail olur. İndi əsas amal bu günə kimi formalaşan gənclər ordusunu heç bir itki vermədən gələcəyə aparmaqdır. Şübhəsiz, bu, belə də olacaq. Çünki Azərbaycan gəncliyi ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sabaha- yeni uğurlara imza atmağa daha yaxındır.

Əsasını Ümummilli Liderimiz Heydər Əliyevin qoyduğu, Azərbaycanı uğurlu gələcəyə aparan siyasət bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən "Azərbaycan gəncliyi" dövlət proqramını təsdiq etmişdi. Dövlət quruculuğunda gənclərin iştirakına şərait yaradılması, gənc ailələrə kömək göstərilməsi, qaçqın və məcburi köçkün ailələrindən olan yeniyetmə və gənclərin hüquqlarının qorunması, sosial problemlərin həlli, gənclərin hərbi vətənpərvərlik tərbiyəsi dövlət proqramının əsasını təşkil edir.

Məhz bu gənclər siyasəti 2020-ci ilin payızında- 2-ci Qarabağ müharibəsində öz sözünü dedi- vətənpərvər və dövlətçi gənclərimiz vətənimizin Ermənistan tərəfindən işğal olunmuş Qarabağ bölgəsini düşməndən azad etdi. Ali Baş Komandanın rəhbərliyi altında bütün gənclər ölkəmizin xoşbəxt gələcəyi üçün birləşib.

Bu gün Azərbaycanda gedən proseslər göstərir ki, Heydər Əliyevin əsasını qoyduğu "böyük gələcək" siyasəti artıq öz bəhrələrini verir. O, fenomenal bir şəxsiyyət kimi öz xalqını tarixin sınaqlarından üzüağ çıxardı və Azərbaycan dövlətini məhv olmağa qoymadı. Azərbaycan xalqı öz böyük xilaskarını heç vaxt unutmayacaq.

***İbrahim Cəfərov***

SƏS
25 iyun
2022-ci il

# Yayda hansı xəstəliklər baş qaldırır?



HƏKİM AÇIQLADI

Bakterial səbəbli qastroenteritlər: Əsasən E.Coli,Salmonellalar, Campilobakteriya, Şigellalar tərəfindən törədilir. Qida zəhərlənmələrinə bağlı ortaya çıxan qastroenteritlər də bakterial qastroenteritlərdir".

Həkim sözlərinə belə davam edib: "Virusların səbəb olduğu qastroenteritlər: Rotavirus, Adenovirus, Norovirus kimi virusların səbəb olduğu bağırsaq infeksiyalarıdır. Uşaqlarda müşahidə olunan ishalların böyük qismi virus mənşəlidir.

**Əlamətləri:**
**Sulu ishal**
**Ürəkbulanma, qusma**
**Qarında ağrı**
**Temperatur**



*"İshal insanların vaxtaşırı qarşılaşdıqları bir infeksion xəstəlikdir. Hər yaşda insanlarda, xüsusən də uşaqlarda daha çox təsadüf olunur". Bu sözləri SİA-ya açıqlamasında həkim infeksionist Leyla Əmrahova deyib. Onun sözlərinə görə, ishal, usma, qarın ağrısı kimi problemlərlə yanaşı, uzun sürdükdə dehidratasiyaya da səbəb ola bilir: "Bağırsaq infeksiyalari bakteriyalar, viruslar, parazitlər tərəfindən törədilə bilər.*

**Baş ağrısı**
**Yorğunluq, halsızlıq**
Dehidratasiyaya bağlı olaraq ağızda və dəridə quruluq
Susuzluq
Mədə ağrısı
Təzyiqin aşağı olması
Ayaqlarda ağrı".

***Ayşən Vəli***

## Alimlər sağlam bir yuxu üçün ən optimal vaxtı təyin etdi

Alimlərdən ibarət olan beynəlxalq bir araşdırma qrupunun European Heart Journal-da nəşr etdirdiyi tədqiqat işində, insanın sağlamlığı üçün ən uyğun yuxu müddətinin 6 ilə 8 saat arasında olması qeyd olunub.

İnsan sağlamlığı üçün ən uyğun yuxu müddətini müəyyənləşdirməyi qarşısına məqsəd qoyan müşahidələr, təxminən 8 il çəkib. 35-70 yaş arasında 116 mindən artıq insanın yuxu qeydiyyat dəftərlərini təhlil edən mütəxəssislər, həddindən artıq yuxunun ürək-damar xəstəliklərdən ölüm riskinin artması ilə əlaqəli olduğu nəticəsini əldə ediblər.

Araşdırma çərçivəsində yuxusu 8-9 saat arasında gedən insanların ölüm riskinin təklif edilən saat aralarında yatan insanlara nisbətən 5% artdığı məlum olub. 9-10 saatlıq yuxunun ciddi xəstəliyə yoluxma riskini 7%, 10 saatdan artıq yuxu bu riski 41%-ə qaldırdığı müəyyənləşdirilib.



Alimlər hesab edir ki, gecələr 6 saatdan az yatan insanlarda bəzi hallarda gündüz yuxusu da ürək-damar xəstəliklərinin inkişafına təkan verir. Digər tərəfdən, ekspertlər əksər hallarda gündüz yuxusunun gecə əskik qalan saatları bərpa etdiyi üçün dəyərlərin normallaşmasını təmin etdiyini qeyd edir.

# Ronaldo yeni klub axtarır...




***"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo karyerasını Almaniyada davam etdirə bilər. Qol.az AS-a istinadən xəbər verir ki, "Bavariya"nın 37 yaşlı hücumçunu transfer etməsi mümkündür. Bildirilib ki, Robert Levandovskinin bu yay klubu tərk edəcəyi halda bu variant nəzərdən keçirilir.***

Ronaldonun da "Mançester Yunayted"də ayrılmağa qərar verdiyi vurğulanıb. Futbolçunun ətrafı artıq Münhen təmsilçisinin marağından xəbərdardır. Qeyd edək ki, Ronaldo ötən mövsüm İngiltərə Premyer Liqasında 30 oyunda 18 qol vurub.

Kriştiano Ronaldonun bu yay "Mançester Yunayted"i tərk etməsinin mümkünlüyü ilə bağlı daha bir iddia isə ondan ibarətdir ki, növbəti mövsümlə bağlı portuqaliyalı futbolçunun komandanın yeni baş məşqçisi Erik ten Haqla bir neçə dəfə söhbəti olub. "Metro" nəşrinin yazdığına görə, portuqaliyalı superulduz holland mütəxəssisin komandaya hücum futbolu qaytarmaq istəyindən məmnun olub. Amma "qırmızı-şeytanlar"ın transfer bazarındakı susqunluğu Ronaldonu narahat edir və buna görə əsəb gərginliyi keçirir. Ronaldo yaxın ətrafına bildirib ki, heyət gücləndirilməsə, o, özünə yeni klub axtarışına çıxacaq.

# Keçi südünün faydaları nədir?

***"Keçi südü inək südünə nisbətən daha faydalıdır. Ona görə ki, qida dəyəri baxımından keçi südü inək südündən daha zəngindir". Bu fikirləri SİA-ya açıqlamasında qida üzrə baş mütəxəssis Ağa Salamov bildirib.***



O qeyd edib ki, keçi südündə vitamin və minerallar daha çoxdur: "Eyni zamanda, keçi südü kalsiumla da zəngindir. Bu da uşaqlara verilə bilən ən gözəl qidadır. Uşaqların sümüklərinin formalaşmasına müsbət təsir edir. Keçi südü həmçinin yaşlılar üçün də faydalıdır. Yaşlılarda sümük ərimə prosesinin qarşısını alır. Yaşlı nəsildə oynaq boşalmalarının, əsmənin qarşısını alır. Belə bir fikir ortaya çıxır ki, bəs süd içərkən inteqrasiya yaranır axı. Qeyd edə bilərik ki, bu, inək südünə aiddir. Çünki inək südündə lakto şəkərinin səviyyəsi yüksəkdir və bunun həzm olunması laktoz emziminə ehtiyac var.

Keçi südündə laktoz şəkəri səviyyəsi aşağı olduğuna görə, bu süddən rahat şəkildə istifadə etmək mümkündür. Bağırsaq floriyası üçün də keçi südü inək südündən daha faydalıdır. Qida dözümsüzlüyünə səbəb olmur".

***Abutel İlhamqızı***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3220**